

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ QAPISI

**100 ilin qəzeti**

Sayı: 4 (24.386)

*27 yanvar 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

*Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*


## Xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında həyata keçirilən inşaat, infrastruktur və abadlıq işləri, həmçinin tikintisi yekunlaşan Bakı Ağ Şəhər Ofis binasında yaradılan şərait ilə tanış olub.

Nadirliyi ilə seçilən Bakı Ağ Şəhər layihəsinin təməli Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən 2011-ci il dekabrın 24-də qoyulub.

Ümumilikdə, 1650 hektar ərazini əhatə edən Bakı Ağ Şəhərdə müxtəlif üslublu 10 rayonun salınması, 120 min yaşayış və xidmət obyektinin tikintisi, 350 hektar landşaft işlərinin görülməsi, 10 kilometr bulvar xəttinin yaradılması nəzərdə tutulub. İndiyədək 91 binanın inşası yekunlaşıb. Layihənin tam yekunlaşmasından sonra burada 280 min sakin yaşayacaq və 240 min iş yeri yaradılacaq.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul edib.

Görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlıqla bağlı nəticələr baxımından 2023-cü ilin uğurlu olduğu bildirildi. Ötən ilin dekabrında Sankt-Peterburqda MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşü çərçivəsində Azərbaycan və Rusiya prezidentlərinin təmasları məmnunluqla xatırlandı.

Nəqliyyat-logistika, Şimal-Cənub Nəqliyyat Dəhlizinin təşviqi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# Naxçıvanın 100 ili

## Naxçıvanın muxtariyyəti tarixi zərurətdən yaranmışdı

***Ötən il dekabrın 30-da Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzaladı. Sərəncamda Naxçıvanın Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutması, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynaması, əsrlərboyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr verdiyi qeyd olunub. Xüsusilə Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğu nəzərə alınaraq muxtar respublikanın 100 illik yubileyinin geniş qeyd edilməsi öz əksini tapıb.***

Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı belə bir dövlət sənədinin imzalanması çox böyük əhəmiyyət daşıyır. Çünki 1924-cü ildə Naxçıvana Azərbaycanın tərkibində muxtar respublika statusunun verilməsi tarixi zərurətdən yaranmışdı, eyni zamanda bu cür yüksək statusa malik olmasına baxmayaraq, son iki yüz ildən artıq bir dövrdə davamlı olaraq haqqında əsassız ərazi iddiaları nın irəli sürüldüyü bir bölgə kimi Naxçıvan daim ermənilər və onların havadarları tərəfindən ön planda saxlanılıb. Ən yaxın tarixin təcrübəsi də göstərir ki, əgər ötən əsrin 90-cı illərində Ümummilli Lider Heydər Əliyev Naxçıvanda olmasa idi, bu qədim Azərbaycan torpağı da işğala məruz qalacaqdı. Hər halda o dövrün reallıqları bunun üçün münasib idi. Təsadüfi deyil ki, Sərəncamın preambula hissəsində də məxsusi olaraq vurğulanır:

*"... Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir".*

Təbii ki, il ərzində 100 illik yubiley tədbirlərinin keçirilməsi muxtar respublikada bir çox sahələrin tarixi inkişaf yoluna yenidən nəzər salmağa imkan verəcək. Amma bunlar içərisində ən önəmlisi muxtar respublikaya muxtariyyət statusunun verilməsini zəruri edən səbəblər idi ki, bu səbəblər içərisində ən birincisi də, az əvvəl dediyimiz kimi, qədim diyara olan əsassız ərazi iddialarıdır. Və burada istər-istəməz belə bir sual ortaya çıxır ki, həqiqətənmi ermənilərin Naxçıvana torpaq iddialarının kökündə bu qədim diyarın strateji mövqedə yerləşməsi dayanır? Düşünürəm ki, 4 il bundan əvvəl "Şərq qapısı" qəzetində oxuculara təqdim etdiyimiz bir yazıdan bəzi hissələri xatırlamaqla ermənilərin Naxçıvana iddialarının digər səbəblərini də görmək mümkündür.

Deməli, tarixi mənbələrə görə, 1787-1791-ci illərdə rus-türk müharibəsi başa çatdıqdan sonra 1799-cu ildə Rusiya imperatriçəsi II Yekaterinanın verdiyi fərman əsasında ermənilər Krım yarımadasından köçürülərək "Şimali Qafqazın qapısı" hesab edilən Rostov qalasının ətrafına yerləşdirilir. Don çayının sahilinə köçürülən ermənilər yerləşdikləri yerə "Yeni Naxçıvan" adı verirlər. 1838-ci ildən sonra isə bu ərazini "Naxiçevan-na Donu" adlandırırlar. 1928-ci ildə isə bu kiçik qəsəbə Rostov-Don şəhərinin bir hissəsinə çevrilməklə "Proletarnıy" rayonu adlandırılır və hazırkı adı da belədir. Əslində isə ruslar ermənilərin bu həyasız təbliğatının bir gün onların özlərinə qarşı da istifadə olunacağını dərk edib bu addımı atıblar.

*(ardı 5-ci səhifədə)*

## Səlahiyyətli nümayəndə xarici və yerli investorları qəbul edib



Yanvarın 25-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli xarici və yerli istehsalçılar, eləcə də investorlarla görüşüb.

Naxçıvanı Türkiyə üçün Şərqin, Azərbaycan üçün isə Qərbin qapısı kimi dəyərləndirən səlahiyyətli nümayəndə bu qədim diyar üçün yeni səhifənin açıldığını bildirib. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" barədə ətraflı məlumat verən Fuad Nəcəfli diqqətə çatdırıb ki, 11 prioritet sahəni əhatə edən proqramda nəzərdə tutulan layihələrin artıq icrasına başlanılır. Xüsusilə "yaşıl enerji", o cümlədən Günəş və külək elektrik stansiyalarının inşası istiqamətində çox böyük layihələrin icrası nəzərdə tutulur. Beynəlxalq konsorsium, həmçinin Türkiyə, Almaniya və Çindən investorlar bu layihələrin icrasında yaxından iştiraka maraq göstərirlər.

"Azərbaycan Françayzinq Assosiasiyası"nın təkilatçılığı ilə baş tutan görüşdə sözügedən Dövlət Proqramının əhatə etdiyi infrastruktur quruculuğu, meliorasiya, kənd təsərrüfatı, təbii resursların emalı və istehsalı, mədənçilik, turizm kimi bir çox sahələrin potensial imkanları və investisiyaya cəlbi məsələləri müzakirə edilib. Diqqətə çatdırılıb ki, Naxçıvan azad iqtisadi zonaya çevriləcək, burada fəaliyyət göstərən şirkətlər üçün vergi və gömrük güzəştləri, daşıma və digər sahələrdə müvafiq stimullaşdırma tətbiq ediləcək.




Türkiyənin "İhlas Holding", "Özgün İnşaat", Çinin "Energy China" kimi şirkətlərinin iştirak etdiyi görüş investisiya imkanları, "yaşıl enerji" potensialı, inşaat layihələri, mədənçilik kimi sahələrə dair təkbətək görüşlərlə davam edib.

Sonda xatirə fotosu çəkdirilib.

**"Şərq qapısı"**


Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfəri 2

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi Azərbaycanın, habelə bölgənin tarixində böyük əhəmiyyət kəsb edir 3

Pənahəli yurdundan Naxçıvana salam olsun 4

Naxçıvanda doğum günü yanvar ayında olan şəhidlərin xatirəsi anılıb 5

Xarıbülbül, Qarabağ və on bir qardaşın hekayəsi 10

# Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfəri

*"Azerbaijan International" jurnalının baş redaktoru Betti Bleyerin müsahibəsi. Bu müsahibə jurnalın 1997 (5.3) sayında dərc olunub və ilk dəfə tərcümə edilir.*

**Betti Bleyer:** – Aşağıdakı müsahibə 1997-ci ilin avqustun 3-də Prezident Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfəri zamanı baş verdi. Bu onun Amerika Birləşmiş Ştatlarına 11 günlük (27 iyul-6 avqust) səfərinin səkkizinci günü, Nyu-Yorka, Vaşinqtona, Kolumbiya dairəsinə, Hyustona və Çikaqoya səfər etdiyi vaxt idi. İki gün əvvəl Prezident Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonla görüşmüşdü və Ağ Evdə üç əsas neft müqaviləsini imzalamışdı.

Nadir hallarda jurnalistlər Prezident Əliyevdən şəxsi suallar soruşmağa cəsarət edir. Buna görə də mən 1993-cü ildən başlayan digər müsahibələrimdə, bir qayda olaraq, onun xarakterini, şəxsiyyətini və bəzi maraqlarını üzə çıxaran mövzuları təqdim etməyə cəhd etmişəm. Mən Amerika Birləşmiş Ştatlarına bu səfərdə Prezidenti müşayiət edən 60 nəfərdən ibarət nümayəndə heyətinin tərkibində yegana qeyri-azərbaycanlı idim və gündəlikdə açıq müzakirə edilmiş adi problemlərdən düşünərək boyun qaçırdım. Bu müsahibə Hyuston və Çikaqo arasında təyyarədə uçuş vaxtı təşkil olundu.

**Betti Bleyer:** – İcazə verin, sualıma burada, Amerika Birləşmiş Ştatlarında sizə göstərilən qonaqpərvərlik və səmimiyyətlə bağlı fikirlərinizi soruşmaqla başlayım. On ildən bir az əvvəl, Birləşmiş Ştatlar və sovet ittifaqı bir-birini ən qorxulu düşmən hesab edirdilər. Hər iki dövlət öz sisteminin digər sistemin üzərindəki üstünlüyü ilə özünü öydü. Və onların hər ikisi "hiyləgər pis oğlan" kimi biri digərini iblisləşdirmək üçün öz təbliğat alətlərindən sui-istifadə etdilər. Bu düşmənçilik və etimadsızlıq dövrünün əksinə olaraq, amma bu gün siz Birləşmiş Ştatlarda ən yüksək səviyyədə səmimiyyət və razılıqla qəbul edildiniz. Bəzən insanların bir-birinə qarşı necə soyuq və inamsız davrandıqlarını xatırlamaq çox çətindir. Siz bu görünməmiş hadisəni necə izah edirsiniz?

**Heydər Əliyev:** – Bildiyiniz kimi, sovet ittifaqı artıq mövcud deyildir. Güclü dövlət kimi sovet ittifaqı (Azərbaycan da onun bir hissəsi idi) Birləşmiş Ştatlar ilə rəqabət apardı. Soyuq müharibə bizim aramızda belə uzun zaman tüğyan etdi, çünki dünya, əsasən, iki düşərgəyə – kapitalistlərə və sosialistlərə bölündü. Sovet ittifaqı sosialist düşərgəsini idarə etdi və müxtəlif ölkələri, xüsusilə müstəqilliklərini qazandıqdan sonra Afrika ölkələrini müstəmləkəyə çevirmədən öz tərəfinə çəkməyi bacardı. Ancaq indi sovet ittifaqı dağılıb və soyuq müharibə qurtarıb. Əgər sovet ittifaqı tənəzzülə uğramasaydı, əlbəttə, Azərbaycan bu gün müstəqil ölkə ola bilməzdi. Əgər ittifaq dağılmasaydı, özünün 50 milyondan çox əhalisi ilə Ukrayna da daxil olmaqla keçmiş sovet ittifaqı respublikalarının heç biri müstəqil ola bilməzdi.

Lakin, nəhayət, indi Azərbaycan 70 ildən sonra yenidən bir daha milli müstəqilliyinə nail olub! Mən düşünürəm ki, Amerika Birləşmiş Ştatları və Azərbaycanın arasında belə səmimiyyət olmasının ən vacib səbəblərindən biri budur ki, biz indi müstəqilliyimizi qoruyub saxlamağa və gücləndirməyə cəhd edirik. Siz nəzərə almalısınız ki, bizim regionda müstəqilliyimizi boğmağa cəhd edən ölkələr var. Məhz ona görə biz müstəqilliyimizi boğmaq istəyən o qüvvələrə qarşı müqavimət göstərən bir güc kimi Amerika Birləşmiş Ştatlarına inanırıq. Başqa sözlə, biz ümid edirik ki, Birləşmiş Ştatlar bir ölkə olaraq müstəqilliyimizi qorumaqda bizə kömək edəcək.

İkincisi, biz Azərbaycanda hüquqi, dünyəvi və demokratik dövlət qururuq. Başqa sözlə, Azərbaycan Qərb meyarlarına uyğun yaşamaq üçün uğurlu addımlar atır. Bu, səmimiyyət və mehriban əlaqələr üçün başqa bir səbəbdir. Və üçüncüsü, biz Birləşmiş Ştatlarla çox geniş iqtisadi əlaqələr qurmuşuq. Siz Azərbaycana səfər edən Amerika şirkətlərinin bir çoxunu, xüsusilə neft şirkətlərini görmüsünüz. Bu ötən iki günün hər ikisində – dünən və bu gün mən bu şirkətlərin çoxunun prezidentləri və baş direktorları ilə görüşdüm. Bu göstərir ki, bizim ölkəmizdə təsis olunmuş və artıq işləyən şirkətlər fəaliyyətlərini genişləndirmək istəyirlər. Bizimlə işləməyə hələ başlamayan şirkətlər isə işə başlamaq üçün yollar axtarırlar.

Məsələn, bir şirkət etiraf etdi ki, il yarım əvvəl onların idarə heyəti Xəzər dənizi regionuna sərmayə qoymamaq üçün qərar qəbul edib. Ancaq bu gün onlar fikirlərini tamamilə dəyişiblər. Onlar səhv etdikləri və gecikdiklərini mənə açıq etiraf etdilər. İndi Azərbaycanda inkişafda olan bir sahə ilə məşğul olmaq üçün onlara icazə verilməsini bizdən xahiş edirlər. Beləliklə, bütün bu amillər bizim burada, Birləşmiş Ştatlarda şahidi olduğumuz qonaqpərvər, səmimi münasibətlərə, eyni zamanda öz töhfəsini verir.

**Betti Bleyer:** – Ötən həftə ərzində siz çıxışlarınızda bir neçə əsas məsələləri vurğuladınız. Bizim oxucularımızın məlumatlanması üçün çox vacib hesab etdiyiniz digər mövzular varsa, onları da öyrənmək istəyərdim. Mən problemləri aşağıdakı kimi qruplaşdırardım: 1) Dağlıq Qarabağ münaqişəsinin həlli; 2) Konqresin Azadlığa Dəstək Aktının 907-ci maddəsinin ləğvi üçün zəruri ehtiyac; 3) Açıq-aşkar Azərbaycanın əleyhinə istifadə edilməsi məqsədilə Rusiyanın Ermənistanı bir milyon dollar dəyərində silahlarla təchiz etməsinin qeyri-qanuniliyi; 4) Rusiya-İran əlaqələri; 5) Xəzər dənizinin neft ehtiyatlarını inkişaf etdirən və dənizin aid olduğu ölkələrlə münasibətdə Xəzərin statusu; 6) Və nəhayət, Azərbaycanda xarici sərmayəçilər üçün biznes imkanları. Mənim sualım belədir ki, oxucularımızın bilməsi üçün digər əsas müzakirələr də oldumu?



**Heydər Əliyev:** – Bunlar əsas problemlərdir. Əgər siz oxucularınıza bu fikirləri təqdim etməyə müvəffəq olsanız, bu məlumatlar kifayət qədər çoxdur. İcazə verin, oxucularınız o problemləri başa düşsün, sonra mən sizə bir qədər də məlumat verəcəyəm.

**Betti Bleyer:** – Siz vaxtınızın çoxunu burada, Birləşmiş Ştatlarda çıxışlar etməklə keçirdiniz. Geriyə qayıdanda Azərbaycanda da eyni olur. Sizin hər iki çıxışınız və Corctaun Universitetində izlədiyim görüşdəki sual-cavab məndə xüsusilə təəssürat yaratdı. Çıxışınız dəqiq və yığcam olmasına baxmayaraq, eyni zamanda amerikalıların Azərbaycanla bağlı problemləri başa düşməsi və öyrənməsi üçün lazımlı, dəqiq məlumatları verdi.

Mən bu illər ərzində sizi müşahidə etdiyimə görə, hesab edirəm ki, prezident kimi sizin gücünüzün böyük hissəsi natiqlik bacarığınız – özünüzü ifadə etmək və başqalarını inandırmaq qabiliyyətiniz ilə bağlanır. Mən düşünürəm ki, siz həyatınızı çıxışlar etməklə keçirmisiniz. Mən sizin gənc yaşda kütlə qarşısında çıxışlarınızda qazandığınız təcrübələriniz haqqında bilmək istəyirdim.

**Heydər Əliyev:** – Siz bu sualı verdiyiniz üçün mən sizə deyirəm ki, bu mənim anadangəlmə istedadımdır. Bu fitri istedaddır. Təhsil almaqla və ya gərgin işləməklə, hətta çoxlu nitq söyləməklə bunu, sadəcə, qazanmaq olmaz. Şübhəsiz, mənim həyat təcrübələrim də mühüm rol oynayır. Mən çox işlər görmüşəm. Mənim çoxlu təcrübəm olub. Mən çox şeyləri görmüşəm və mən geniş auditoriyaların qarşısında tribunada çıxışlar etmişəm. Buna görə də təcrübənin rolu da danılmazdı.

Ancaq mənim danışıq qabiliyyətimin insana təbiətdən gələn istedaddır. İnsan bu qabiliyyətlə doğulur. Əgər bu yoxdursa, heç bir təcrübə kömək etmir. Bəli, bu, həqiqətdir ki, mən gəncliyimdən həmişə fikirlərimi aydın ifadə edən şəxs olmuşam. Mənim, təxminən, 17 və ya 18 yaşım olanda, mən təsirli nitqlər söyləməyə başladım. Ancaq siz mənim çıxışlarımı mətndən oxuduğumu heç vaxt görməmisiniz. Mən əvvəlcədən heç vaxt hazırlaşmıram.

**Betti Bleyer:** – Bəs sizin əksər başqa prezidentlər kimi heç bir məruzə yazanınız yoxdur?

**Heydər Əliyev:** – Xeyr, mənim məruzə yazanım yoxdur. İcazə verin, bir neçə gün əvvəl baş vermiş hadisəni sizə danışım. Biz Ağ Evdə olanda Klinton qeydləri əsasında çıxış etdi və Al Qor da mətni üzündən oxudu. Qor da Klinton kimi müqavilələrdən birini imzalayanda danışdı. Onların hər ikisinin mətnləri var idi. Ancaq mənimki yox idi. Hamısı buradadır (əli ilə ürəyini göstərir).

**Betti Bleyer:** – Siz məruzələrinizə əvvəlcədən hazırlaşırsınızmı?

**Heydər Əliyev:** – Xeyr. Danışıq prosesində fikirlərin doxsan faizi ağlıma gəlir. Ola bilsin ki, mən, təxminən, 10 faizi hazırlayıram. Ancaq mən danışığımın ortalarında elə vaxtlar olur ki, fikirlərimi dəyişirəm. Lakin, ümumiyyətlə, mən heç vaxt əvvəlcədən hazırlaşmıram.

**Betti Bleyer:** – Siz heç vaxt bir kəlmə də yazmırsınız?

**Heydər Əliyev:** – Heç vaxt. Siz məni görübsünüz. Mənim heç vaxt heç bir qeydlərim olmur. Xeyr, hətta kiçik bir kağız da olmur. Heç vaxt. Mən onilliklər ərzində bu üsulla danışmışam. Hətta mən Siyasi Büronun üzvü olanda danışıq qabiliyyətimə görə başqalarından fərqlənirdim. Məndən başqa heç kəs birbaşa – ürəkdən danışmırdı. Hamı üzündən oxuyurdu. Hamının qeydləri var idi.

**Betti Bleyer:** – Ancaq ətrafda hərəkət edən insanlar, televiziya kameraları, mikrofonlar, otaqda bu qədər çox, həddən artıq diqqəti yayındıran danışıqlar olur. Baş verən çox şeylər var. Siz ətrafınızda baş verənləri nəzərə almayaraq bu qədər diqqətli necə qala bilirsiniz?

**Heydər Əliyev:** – Bu mənim xüsusiyyətimdir – fikrimi cəmləşdirmək mənim qabiliyyətimdir.

**Betti Bleyer:** – Siz nə vaxtsa evə gedir və "Mən vacib nəyisə deməyi unutdum. Mən nəyisə yaddan çıxardım" deyirsinizmi?

**Heydər Əliyev:** – Əgər sizi bunu bilmək maraqlandırırsa, icazə verin, deyim ki, mən çıxış edəndə beynim böyük enerji ilə işləyir, mən bu barədə çox intellektualam. Bəzi hallarda, mən, hətta özümü təəccübləndirirəm. Məsələn, biz müqaviləni imzalayanda Prezident Bil Klinton bəyanat verdi və sonra mən bəyanatımı verməli oldum. Sizə həqiqəti deyim ki, mən əvvəlcədən nə deyəcəyimi bilmirdim, hazırlaşmamışdım. Ancaq çox tez bütün ideyalar beynimə gəldi. Nəticədə, sonra çıxışımı mənə şərh edən bəzi insanlar kimi mən öz bəyanatımdan tamamilə razı qaldım.

**Betti Bleyer:** – Siz bir dəfə mənə dediniz ki, böyüdüyünüz Naxçıvanda tez-tez teatra gedirdiniz. Teatrın sizin natiqlik qabiliyyətinizə güclü təsiri olubmu?

**Heydər Əliyev:** – Xeyr, mən elə deməzdim. Teatr mənim hobbimdir. Mən teatra gedirəm, çünki mən ondan çox xeyir götürürəm.Teatr məndə dərin təəssürat yaradır. Onun mənim üzərimdə təsiri çoxdur. Ancaq mən deməzdim ki, teatr mənim nitq söyləməyimdə rol oynayır. Teatr onu başa düşən insanlar üçün çox güclü vasitədir, ancaq teatrı hamı başa düşmür. Mən teatrı başa düşürəm və etiraf etməliyəm ki, mənim üzərimdə teatrın hər ikisindən, televiziyadan və kinodan daha böyük təsiri var.

**Betti Bleyer:** – Nəvənizin adı nədir?

**Heydər Əliyev:** – Mən ona hələ ad qoymamışam. Mən bir neçə gündən sonra Londona (körpənin doğulduğu yerə) baş çəkəcəyəm və orada ona ad qoyacağam. (Ənənəyə görə, üç gün sonra o, öz "Heydər" adını nəvəsinə qoydu. Bu, Heydər Əliyevin adını daşıyan ilk nəvəsidir).

Bu səfərin digər şəxsi cəhəti doktor Maykl De Bakey ilə keçirilən görüş oldu. O, çox tanınmış bir şəxsdir. O, ilk dəfə "bypass" ürək əməliyyatını aparan şəxs olub. Biz onunla bu gün görüşəndə o bildirdi ki, altmış min insan üzərində cərrahiyyə aparıb. Təsəvvür edin, o, nə qədər insan həyatını xilas edib. Bildiyiniz kimi, doktor De Bakey yeganə xarici mütəxəssis idi ki, Rusiya Prezidenti BorisYeltsin onu bu yaxınlardakı ürək cərrahiyyəsində iştirak etməyə dəvət etdi.

**Betti Bleyer:** – De Bakey çox yaşlıdır, elə deyilmi?

**Heydər Əliyev:** – Onun 80 yaşı var. Buna görə də, mən ona elə çox hörmət bəsləyirəm. Bu yaşda olmasına baxmayaraq, o hələ də fəal işləyir. Siz onu gördünüz. Mən bilmirəm – ola bilsin ki, Amerika Birləşmiş Ştatlarında onu layiqincə qiymətləndirmirlər. Ancaq o, çox qiymətli insandır. Buna görə də mən ona baş çəkmək istədim. Mən Hyustonda olarkən məhz ona görə proqramımda onunla görüşmək üçün vaxt müəyyən etdim. O, çox tanınmış şəxsiyyətdir – çox böyük insandır. Və o, səhranın ortasında, orada böyük bir tibb mərkəzi (Hyuston Tibb Mərkəzi) yaratdı. Mən onu müxbirlərin məqalələrindən tanımışdım. On il əvvəl mənim özümün ürək krizisi olduğuna görə bura mənim maraqlandığım yerdir.

**Betti Bleyer:** – Beləliklə, sizin onunla əlaqəniz olub?

**Heydər Əliyev:** – Xeyr, o, cərrahiyyələrlə məşğuldur. Mənim cərrahiyyə olunmağıma heç bir ehtiyac yox idi. O zaman, 1987-ci ildə mənim ürəktutmam olanda çox adam mənə dedi ki, mən çox uzun yaşamayacağam. On il əvvəl, 1987-ci ilin avqustu idi. Mən üç ay xəstəxanada qalmalı oldum. Həkimlər mənə dedilər ki, mən daha işləyə bilməyəcəm. Ancaq görürsünüz, bu da mən – hələ də sağ-salamatam və işləyirəm.

**Betti Bleyer:** – Sizin iş qrafikiniz gərgindir. Siz heç dayanmırsınız? Hamı təyyarənin arxasında tükənir və taqətdən düşür. Bu sizin səfərinizin səkkizinci günüdür. Hər kəs elə yorulur, ancaq siz hələ də enerji ilə işləyirsiniz. Hər gün nə qədər istirahət edirsiniz? Nə qədər yatırsınız?

**Heydər Əliyev:** – Çox az – altı saatdan çox olmur.

**Betti Bleyer:** – Siz günün ortalarında istirahət edirsinizmi?

**Heydər Əliyev:** – Xeyr, heç vaxt.

**Betti Bleyer:** – Beləliklə, siz bütün bu gücü haradan alırsınız?

**Heydər Əliyev:** – Bu, Tanrıdan gəlir.

**Betti Bleyer:** – İcazə verin, sizin Amerika Birləşmiş Ştatlarına gətirdiyiniz hədiyyələrin bəziləri haqqında sizdən soruşum. Siz Prezident Klintona hədiyyə etdiyiniz xalça haqqında danışardınız. Mən öyrəndim ki, xalçada Bill Klintonun və həyat yoldaşı Hillarinin birlikdə portretləri xüsusi işlənib.

**Heydər Əliyev:** – Mən, həmçinin onların qızları Çelsi üçün ayrıca xalça gətirdim. Prezident Klinton xalçalardan çox məmnun oldu. O mənə dedi ki, Çelsi həmin səhər xalçalara baxmaq üçün onun ofisinə baş çəkib. O dedi ki, Çelsi çox sevincli idi və xalçalar onların hamısının çox, lap çox xoşlarına gəlib.

**Betti Bleyer:** – Bu ideyanı hər kəs düşünə bilməz. Prezidentə, hər ikisini – prezidenti, həyat yoldaşını və övladını əks etdirən hədiyyə vermək. Bunu etmək üçün ideya sizdə haradan yarandı?

**Heydər Əliyev:** – Bu mənim ideyam idi. Mən bilirəm ki, hər bir insan üçün onun həyat yoldaşı və uşaqları ona çox əzizdir, çox qiymətlidir. Məhz ona görə mən bunu etdim. Bu əsrlərlə yaşayan incəsənət nümunəsində onların hamısının xatırlanmasının bir yoludur.

**Betti Bleyer:** – İnsanların çoxunun Hillari haqqında müxtəlif fikirləri var. İnsanların çoxu, həqiqətən, onun haqqında fikir söyləyə bilmir.

**Heydər Əliyev:** – Xanım Klintonla tədbirdə görüşməyimə baxmayaraq, mən onu çox yaxşı tanımıram. Mən şəxsən onunla danışanda, o məndə çox yaxşı təəssürat yaratdı. Hər halda hamının rəğbətini qazanmaq qeyri-mümkündür – xüsusilə də ictimai xadimsənsə.

**Betti Bleyer:** – Azərbaycanlıların səfərdən qayıdanda sevdiyi insanlara hədiyyə gətirmək adəti var. Sizin Azərbaycan xalqına hədiyyəniz nədir?

**Heydər Əliyev:** – Ən böyük hədiyyələr bizim burada, Amerika Birləşmiş Ştatlarında qazandığımız nailiyyətlərdir. Biz Prezident Klinton ilə ölkələrimiz arasında çoxtərəfli əlaqələri gücləndirmək məqsədilə müqavilə imzaladıq. Bu müqavilələrin böyük tarixi əhəmiyyəti olacaq. Bundan əlavə, mən və cənab Klinton birlikdə ölkələrimizin vəziyyəti və əlaqələrimizi birlikdə çox səmimi müzakirə etdik.

***İngilis dilindən tərcümə etdi:***
**Süsənbər AĞAMALIYEVA**
***filologiya üzrə fəlsəfə doktoru***

# MUXTARİYYƏT 100

## İsmayıl Hacıyev: “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi Azərbaycanın, habelə bölgənin tarixində böyük əhəmiyyət kəsb edir”



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 30 dekabr tarixli “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamı qədim diyar Naxçıvanın zəngin dövlətçilik tariximizdə, ölkəmizin inkişafında mühüm yer tutduğunun göstəricisidir. Muxtar respublikanın yubileyinə mühüm töhfə olan Sərəncamın mahiyyəti, əhəmiyyəti barədə AMEA Naxçıvan Bölməsinin sədri, akademik ***İsmayıl Hacıyev***lə həmsöhbət olduq.

***– İsmayıl müəllim, sözügedən Sərəncamın əhəmiyyəti nədən ibarətdir?***

– Əvvəlcə qeyd edim ki, Naxçıvan qədim tarixə, zəngin keçmişə malik olan Azərbaycanın ayrılmaz bir hissəsidir. Bu diyar strateji mövqeyi, əlverişli coğrafi ərazisi ilə həmişə maraq dairəsində olub. Bir sıra dövlətlər tarixin müəyyən mərhələlərində bu əraziyə yiyələnmək üçün xeyli canfəşanlıq göstərmişlər. Böyük dövlətlərin köməyi ilə Azərbaycan ərazisinə, eləcə də Naxçıvana köçürülən ermənilər bura sahib olmaq üçün aborigen azərbaycanlılara qarşı soyqırımı həyata keçirmişlər. Qəhrəman naxçıvanlılar düşmənə mərdliklə sinə gərmiş, ərazini Azərbaycan torpağı kimi qoruyub saxlamışlar. Məkrli düşmənlərimiz başqa bir yola əl atmış, qədim Azərbaycan ərazisi olan Zəngəzurun qərb hissəsini 1920-ci ildə Ermənistana verməklə Naxçıvanı Azərbaycandan ayrı salmışlar. Yəni Naxçıvanın indiki kimi Azərbaycanla birbaşa əlaqəsi olmamışdır. Belə olan vəziyyətdə naxçıvanlıların tələbi, 1921-ci ilin yanvarında keçirilən referendumun nəticəsi və Moskva müqaviləsinin şərtlərinə görə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilmiş və 1924-cü ilin fevralın 9-da Naxçıvan Muxtar Respublikası təşkil edilmişdir. Naxçıvan Muxtar Respublikası 70 il SSRİ-nin tərkibində muxtar respublika kimi fəaliyyət göstərmiş, sosial-iqtisadi, elmi-mədəni cəhətdən müəyyən səviyyədə inkişaf etmişdir.

Bu illərdə Naxçıvan Muxtar Respublikasının təşkil edilməsinin bir neçə dəfə yubileyləri keçirilib. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının yubileyləri yüksək səviyyədə qeyd edilib. Bu yubileylərdə Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etməklə yanaşı, proqram xarakterli nitqlə çıxış etmişlər. “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” ölkə Prezidentinin müvafiq Sərəncamı tamamilə qanunauyğundur və tarixi ənənələrə əsaslanır. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi Azərbaycanın, habelə bölgənin tarixində böyük əhəmiyyət kəsb edir və xalqımızın həyatında əlamətdar hadisədir. Sərəncamın əhəmiyyəti bir də onunla əlaqədardır ki, bu Sərəncamdan irəli gələn vəzifələr yerinə yetiriləcək, muxtariyyət statusu, muxtar respublikanın tarixi və inkişafı ilə bağlı tədqiqatlar aparılacaq, tədbirlər həyata keçiriləcək və bununla Naxçıvanın qədim türk torpağı olduğu bir daha beynəlxalq ictimaiyyətə çatdırılacaqdır.

***– Naxçıvanın Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yeri və roluna qısaca nəzər salaq...***

– Azərbaycan xalqının tarixi kimi, onun dövlətçilik tarixi də çox qədimdir. Xalqımızın dövlətçilik tarixinin yaşı beş min ildən çoxdur. Xalqımızın dövlətçilik



tarixi göstərir ki, Azərbaycan xalqı bütün sahələrdə olduğu kimi, dövlətçilik sahəsində də tarixboyu dünya sivilizasiyasından ayrı düşməmiş, öz dövlətçiliyini inkişaf etdirmiş, dövlət ənənələrini qoruyub saxlamış, təkmilləşdirmişdir. Azərbaycan xalqı öz tarixi ərzində Manna, Midiya, Atropatena, Albaniya, Sacilər, Salarilər, Rəvvadilər, Azərbaycan Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Azərbaycan Xalq Cümhuriyyəti, sovet hakimiyyəti kimi nə qədər dövlət nümunələri görüb.

Naxçıvan uzun əsrlər ərzində bir-birini əvəz edən dövlətlərin ən inkişaf etmiş əyalətlərindən biri olub. Bu dövlətlərin tərkibində Naxçıvan özünəməxsus mövqeyi ilə seçilib. Tarixin müəyyən dövrlərində Naxçıvan ərazisində müstəqil, yaxud yarımasılı olan dövlətlər mövcud olub: Naxçıvanşahlığı, Azərbaycan Atabəylər dövləti, Naxçıvan tüməni, Naxçıvan sancağı, Naxçıvan xanlığı, Araz-Türk Respublikası, Naxçıvan MSSR və Naxçıvan Muxtar Respublikası. Sərəncamda bununla bağlı deyilir: *“Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır... Naxçıvan əsrlərboyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir”.*

***– İsmayıl müəllim, Naxçıvan Muxtar Respublikasının inkişafında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri barədə nə deyə bilərsiniz?***

– Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkibində özünəməxsus inkişaf yolu keçib, həyatın bütün sahələrində nəzərəçarpacaq nailiyyətlər əldə edib. Bu baxımdan 1969-cu ildən sonrakı dövr, xüsusilə mühüm mərhələ təşkil edir. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə ölkənin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da əsl tərəqqi və quruculuq dövrü olub. Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının inkişafına dair mükəmməl konsepsiya formalaşdırmışdır. Bu konsepsiyanın əsasında Naxçıvanın SSRİ-nin muxtar qurumları içərisində qabaqcıl yer tutmasına nail olmaqla bərabər Azərbaycan Respublikasına inteqrasiyasını təmin etməklə Azərbaycan dövlətçiliyinin güclü dayaqlarından birinə çevrilməsi dayanmışdır. Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının siyasi-hüquqi statusu ilə birlikdə, onun sosial-iqtisadi, siyasi və mədəni həyatının inkişafını təmin etməklə Azərbaycan dövlətçiliyindəki rolunu möhkəmləndirirdi. Çünki inkişaf etmiş Naxçıvan inkişaf etmiş Azərbaycan dövləti demək idi. Heydər Əliyev Naxçıvan iqtisadiyyatını dirçəltmək üçün xalq təsərrüfatına əsaslı vəsait qoyuluşunu artırdı. Təkcə 1971-1975-ci illərdə vəsait qoyuluşunun həcmi 1925-1970-ci illərdəkindən 4,8 dəfə çox idi. Muxtar respublikada xalq təsərrüfatının müxtəlif sahələrinə aid 783 milyon manatlıq əsas fondlar tikilib istifadəyə verildi. Ulu Öndər 1990-1993-cü illərdə nəinki Naxçıvanın ərazi bütövlüyünü qorudu, həm də onu işğal təhlükəsindən xilas etdi. Təsadüfi deyildir ki, Prezident cənab İlham Əliyev qeyd edib ki, naxçıvanlılar Heydər Əliyevi qoruduqları kimi, Heydər Əliyev də Naxçıvanı qorudu, onu xilas etdi. Bu gün Ulu Öndərin Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planları və arzuları uğurla yerinə yetirilir.

***– Bilirsiniz ki, ölkə başçısı tərəfindən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” qəbul edilib. Proqramdan irəli gələn vəzifələrin həlli yüzilliyə nə kimi töhfələr verəcək?***

– Qeyd etdiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib. Əslində, Sərəncamın adından onun məqsəd və mahiyyəti aydındır. Dövlət Proqramı olduqca əhatəli və geniş spektrə malikdir. Burada Naxçıvan Muxtar Respublikasının yeni tarixi mərhələdə inkişaf konsepsiyası siyasi və iqtisadi cəhətdən mükəmməl şəkildə, hərtərəfli surətdə əsaslandırılıb. Dövlət Proqramında inkişaf strategiyasının həyata keçirilməsinin 11 istiqaməti və 13 vacib çağırışı əhatə edilir. Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir.

Dövlət Proqramının icrası ilə bağlı ötən il iyunun 7-də səlahiyyətli nümayəndəlikdə müşavirə keçirilib. Müşavirədə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Dövlət Proqramı haqqında ətraflı məlumat verib, qarşıya qoyulan vəzifələrin icrasında aid dövlət qurumlarının üzərinə düşən vəzifələri diqqətə çatdırıb. Azərbaycan Respublikası Prezidentinin imzaladığı müvafiq Sərəncamda son bir ildə Naxçıvan Muxtar Respublikasında görülmüş işlərə də münasibət bildirilib: *“Naxçıvan Muxtar Respublikası bu gün Dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika yaşıl enerji zonası elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir”.*

Göründüyü kimi, Sərəncamda qeyd olunan məsələlərlə Dövlət Proqramında irəli sürülən vəzifələr bir-birini tamamlayır. Hər iki rəsmi dövlət sənədi Naxçıvan Muxtar Respublikasının fəaliyyətinə qiymət verməklə yanaşı, görüləcək işlər, qarşıda duran vəzifələri də müəyyən edir. Prezident cənab İlham Əliyevin imzaladığı hər iki sənəd Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə yüksək töhfə olmaqla həm də onun hərtərəfli inkişafını təmin edəcəkdir.

***– AMEA Naxçıvan Bölməsi muxtar respublikanın 100 illiyi ilə bağlı hansı tədbirlər görməyi planlaşdırır?***

– İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə belə bir Sərəncam verdiyinə görə AMEA Naxçıvan Bölməsinin bütün əməkdaşları, eləcə də muxtar respublika ziyalıları adından dərin minnətdarlığımızı bildiririk.

Naxçıvan Muxtar Respublikasının yaradılması çox çətin şəraitdə aparılan siyasi və hərbi mübarizənin nəticəsində əldə edilib. Naxçıvanın qorunmasının nəticəsi olaraq muxtar respublika yaradılıb. Bu günlərdə – yanvarın 7-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin sədrliyi ilə keçirilən müşavirədə aid təşkilatlara yubiley tədbiri ilə bağlı tapşırıqlar verildi.

AMEA Naxçıvan Bölməsinin kollektivi Tədbirlər Planına uyğun olaraq “Muxtariyyətin 100 ili: keçmişdən bu günə” beynəlxalq konfransın keçirilməsini, “Naxçıvan: muxtariyyət statusu və muxtar respublikanın təşkili” monoqrafiyasının yazılmasını, muxtariyyətin tarixi ilə bağlı tədqiqatların aparılmasını, “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” mövzusunda dəyirmi masaların keçirilməsini, AMEA Naxçıvan Bölməsində “Naxçıvan Muxtar Respublikası: tarix və müasirlik” mövzusunda elmi konfransın təşkilini, “Naxçıvan Muxtar Respublikası – 100” mövzusunda tematik səhifənin yaradılmasını, “Naxçıvan Muxtar Respublikasının inkişafı” adlı uyğun ali təhsil müəssisələri ilə konfransın keçirilməsini, KİV-də Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı çıxışların təşkilini və digər məsələləri nəzərdə tutur. Hələlik, planlaşdırdığımız bunlardır. Yaxın günlərdə Tədbirlər Planına bir daha baxılıb əlavələrlə birgə təsdiq ediləcəkdir.

***– Müsahibə üçün sağ olun.***

**✍ Güntac ŞAHMƏMMƏDLİ**




# Pənahəli yurdundan Naxçıvana salam olsun!






Gecə saat 2-dir. Cəmi bir neçə saat qalır arzuma qovuşmağıma. Həyəcandan gözümə yuxu da getmir. Saatın zəngini $4^{00}$-a qursam da, əmin olmaq üçün tez-tez telefonuma baxıram, – birdən yatıb qalaram deyə... Amma yox, bu gün yuxu məndən qaçaq düşüb. Bu həyəcan imkan verməyəcək yatmağa. Deyəsən, səhəri elə gözüaçıq qarşılayacağam. İlk görüşə tələsən aşiq kimiyəm sanki. Ürəyimin sürətli döyüntüsünü köksümdə hiss edirəm. Onu düşünməkdən saatın necə keçdiyinin fərqində də olmamışam. Artıq zaman çatıb. Qalxım daha. Onunla görüşə xüsusi diqqətlə hazırlaşıram. Ən gözəl halımla görüşünə getməliyəm. Axı o da məni ən gözəl halı ilə qarşılayacaq... Çox həyəcanlıyam. Avtobusu qaçıraram qorxusu ilə $6^{30}$-da yola düşən avtobusa gecə saat $4^{00}$-dan gedirəm. Və nəhayət, Bakı Beynəlxalq Avtovağzalındayam. Uzaqdan xüsusi formalı bir nəfər gözlərini qıyıb diqqətlə mənə baxır. Yaxınlaşıram. “Növbə rəisi” yazılıb formasının yaxasında. “Şuşaya gedirsiniz?” sualı həyəcanımı daha da artırır. “Bəli”, deyirəm. Siz çox tez gəlmisiniz, gözləyin, bir azdan avtobus gələcək.

Və nəhayət, məni xəyallar dünyama aparacaq avtobus dayanacağa yaxınlaşır. Qarşısındakı “Şuşa” yazısını gördükdə özümü ruhum bədənimdən çıxacaqmış kimi hiss edirəm. İti addımlarla avtobusa doğru irəliləyirəm. Şuşaya gedəcək sərnişinlər avtobusda bir-bir öz yerini alır. Və saat $6^{30}$-dur. Yol alırıq sevgili Şuşaya...

...Əziz Şuşa, sənə qovuşmaq arzusundan, səni görmək duyğusunun verdiyi həyəcandan daha üstün hansı hiss ola bilər ki? Hansı hiss bu həyəcana tən gələ bilər axı?.. Ürəyim elə sürətlə döyünür



ki, sanki səsi Daşaltıda əks-səda verir, Cıdır düzündə eşidilir, Qızlar oylağında duyulur. Duyğular sözlə ifadə olunmur. Bütün kəlmələr hisslərim qarşısında aciz qalır... Avtobus Şuşaya doğru irəlilədikcə bələdçi bizə işğaldan azad olunan torpaqlarımızda aparılan tikinti-quruculuq işləri haqqında məlumat verir. Qış olmağına baxmayaraq, qara, borana, şaxtaya məhəl qoymadan qurub-yaradır qızıl əllər... Axı biz qurub-yaradan xalqıq. Hələ bu harasıdır? Cənnətə çevriləcək doğma Qarabağımız...

Günortaya yaxın sis-duman çəkilir qismən. Dağlardan boylanan Günəş ətrafı nura boyayır. Vəhşi ermənilər tərəfindən dağıdılan tarixi abidələrimizin yenidən bərpasına, təmiz küçələrə, tikilən yeni binalara, çəkilən yollara, salınan bağlara göz gəzdirdikcə sevincdən, fərəhdən insanın qəlbi dağa dönür. İgid oğullarımızın qanı ilə yazdığı şanlı tarixin ilk şahidi olan Zəfər yolu ilə irəliləyirik doğma Şuşamıza... Artıq dəqiqələr qalır müqəddəs Şuşa torpağına qədəm qoymağa. Yamacın başındakı “Şuşa” yazısını gördükdə ürəyim qanad açıb uçur sanki... O qədər tələsirəm ki, Şuşanı qarış-qarış, addım-addım gəzməyə... Avtobus Şuşanın mərkəzində dayanır. Bir az əvvəl Şuşanı gəzmək arzusunda olan mən, indi avtobusdan enə bilmirəm. Bu müqəddəs torpağa ayaq basmaq necə də çətindir, İlahi... Şəhidlərimizin qanı ilə sulanan bu torpaqlara insan ayaq basmağa qıymır, dizin-dizin sürünmək istəyir, torpağına alın qoyub, daşına səcdə edib, hər qarışını öpmək istəyir... Gözlərim dolur... Qəribə hisslər keçirirəm. Bilmirəm, sevinirəm, yoxsa kədərlənirəm... Həyatımda ilk dəfədir, belə hisslər yaşayıram. Atamın Şuşanın azad olunduğu zaman ilk dəfə hönkürtü ilə ağladığının şahidi olduğum gün düşür yadıma... Anamın nəzir-niyaz payladığı Zəfər günümüz gəlir ağlıma... Özümü ələ ala bilmirəm. Hıçqırıqlara boğuluram bir anlıq... Sən bizə necə əziz, necə doğmasan, Şuşa! Sən bütün azərbaycanlıların əzizisən... Nisgili ürəyimdə qubar bağlayan dünya qədər həsrətim bir anda yox olur. Tez, görüntülü zəng edirəm atama. Sevincimi ilk olaraq ailəmlə bölüşürəm. Bilmirəm, hamı sevincdənmi, yoxsa fərəhdənmi qəhərlənir?

Şuşanın həzin küləyi ilə qucaqlaşıram... Şuşa bizi nur ilə qarşılayır. Narınnarın yağan qar ulduztək sayrışaraq üzərimə səpələnir, saçımı sığallayır. Bu nur altında ilk ziyarətimiz Şuşanın ən mistik məkanı olan Cıdır düzünədir. Buradan məşhur Daşaltı kəndi ovuc içi kimi görünür. O Daşaltı ki uğrunda Azərbaycan Ordusu neçə-neçə şəhid verib, amma Daşaltının qisasını daş altında qoymayıb. İrəliləyib sal daşlardan birində əyləşirəm, gözlərimi qırpmadan qarşımda açılan mənzərəni seyr edirəm. Asimana üz tuturam, qartallara, şahinlərə qoşulub, sıldırım qayaların qoynundakı Cıdır düzünün, Topxana meşəsinin üzərindən qanad açıb süzürəm. Vaqifin məqbərəsinin, Üzeyirin, Bülbülün dünyaya göz açdığı evlərin, memarlıq salnaməsi Gövhər ağa məscidinin, əfsanəvi İsa bulağının, sirli-sehrli Natəvan bağının, Xanın yanıqlı avazının ərşə qalxdığı dağların, xarıbülbüllü çəmənlərin, düzlərin üzərində bərq vururam.




İndi Şuşanın təməl daşını qoyan Pənahəli xanın, Cıdır düzündə at oynadan ataların, Şuşanın şöhrətinə şöhrət qatan Xurşidbanu Natəvanın, dahi Üzeyirin, Bülbülün, bu uca, bu ülvi məkanı qanları, canları ilə azad edən şəhidlərin ruhu da dinclik tapıb bu səmada. Məni xəyalımdan bələdçinin səsi ayırır. Qarış-qarış gəzirik Şuşanı... İndi də Molla Pənah Vaqifin məqbərəsi ilə üz-üzəyəm. Şairin şad ruhu dolaşan ziyarətgaha daxil oluram. Nə xoş təsadüfdür. 1982-ci ilin elə bu ayında, qarlı-şaxtalı yanvarında Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə bu məqbərənin açılışı baş tutub. Şuşa işğalda olarkən dağıdılan məqbərə cənab İlham Əliyevin tapşırığı ilə Şuşa azad edildikdən sonra ən qısa zaman ərzində bərpa edilib. Şairin məzarı üstündə tikilən məqbərə Qarabağda barbarların xarabaxanaya çevirdiyi saysız tarixi məkanlardan biridir.

İndi isə yol alırıq “Xan qızı” bulağına... Bulağa yaxın ərazidə güllələnmiş heykəllər sıralanıb. Sevgili Üzeyir, xan qızı Natəvan və dahi Bülbül... Düşünürəm, İlahi, Qarabağ savaşı kimsənin görmədiyi, bilmədiyi nə çox şey göstərdi dünyaya. Dünya gördü ki, heykəllər də güllələnərmiş, yaralanarmış, əsir düşərmiş, qəm, nisgil, ağrı, acı çəkərmiş... Heykəlləri bircə-bircə doğma yurdunda salamlayıram! Növbəti dayanacaqsa yağı düşmənlərin bir zamanlar qurutduqları Natəvan bulağıdır. Xurşidbanu Natəvanın öz vəsaiti hesabına çəkdirdiyi bu bulaq o zamanlardan bəri “Xan qızı” bulağı adıyla məşhur olub. Bulaqdan su qurtumlayıb Xan qızının evinə tərəf boylanıram. Bir anlıq zaman məni sirli-sehrli cənginə alıb, muğam məclislərinə aparır...

Üç ildir ki, şəkil çəkdirmək üçün həsrətlə gözlədiyim Şuşa qalasına addım-addım irəliləyirik. Nə yalan deyim, qalanın qarşısında fotosu olan hər kəsə hər zaman qibtə etmişəm. Çox həyəcanlıyam. Az sonra mənim də Şuşayla xatirə şəkillərim olacaq. Budur, qalaya yaxınlaşırıq. Bu qala Qarabağın tarixi abidələrinin, deyərdim ki, ən zəngini və möhtəşəmidir. Möhkəm qala divarları Qarabağın kimliyini, nəyə qadir olduğunu göstərir sanki... 1751-ci ildə Qarabağ xanı Pənahəli xanın şərəfinə ucalan bu qalanın tikintisi zamanı Naxçıvan memarlarının da bədii təfəkküründən, zövq incəliyindən, zəngin təcrübəsindən istifadə olunub. Elə burada, Pənahəli xanın ruhunun pərvaz etdiyi bu müqəddəs qalada onun dostu, Naxçıvan xanı Heydərqulu xanın diyarından “salam” söyləyirik. Qalanın hər qarışında doyunca şəkil çəkdirdikdən sonra yenidən görüşmək arzusu və ümidi ilə bu müqəddəs məkandan ayrılırıq.

Şuşanın tarixi məhəllələri ilə irəliləyirəm. Həyətlərə boylanıram, taxta darvazalar, məhəccərli pilləkənlər, dədə-babalarımızın qolunun gücüylə üzü qibləyə doğru tikilən, hər daşından, divarından xatirə boylanan evlər... Bir anlıq düşünürəm ki, görəsən, hansı xatirələr gizlənib bu tinlərdə, bu küçələrdə, nə talelər yaşanıb bu evlərdə?.. Munis hisslər keçirirəm. Sanki şirin bir röyadayam və əsla oyanmaq istəmirəm. Təəssüf ki, hicrandan vüsala gətirən yollar bizi geri aparır. Amma bu hicran müvəqqəti həsrətin xoş intizarıdır. Vüsalın şirin həyəcanı ilə yenidən sənə qovuşmaq diləyilə, əziz Şuşa!

✍ **Gülcamal TAHİROVA**




# Naxçıvanda doğum günü yanvar ayında olan şəhidlərin xatirəsi anılıb

Yanvarın 23-də “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin təşkilatçılığı ilə yanvar ayında doğum günü olan şəhidlərin anım tədbiri keçirilib.

Dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələrinin, eləcə də tələbə-gənclərin iştirak etdiyi tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Televiziyasının bu mövzuda hazırladığı videoçarx nümayiş etdirilib. Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri videoçarxda adları çəkilən 49 Birinci və İkinci Qarabağ müharibəsi şəhidinin portretlərini təqdim edib.

“Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin sədri, şəhid baş leytenant Amin Gülməmmədovun atası Mayis Gülməmmədov ötən əsrin 90-cı illərində çətin blokada şəraitinə və düşmən hücumlarına sinə gərən Naxçıvanın igid övladlarının qəhrəmanlıqlarından söz açıb, şəhid və qazilərimizin şərəfli ömür və döyüş yolunun hər bir gənc üçün əsl vətənpərvərlik örnəyi olduğunu bildirib.

Şəhid Ülvi Cəfərovun atası Habil Cəfərov şəhid ailələri adından çıxış edərək tədbiri yüksək qiymətləndirib, göstərilən diqqət və qayğıya görə təşəkkür edib.

“Naxçıvan Qaziləri” İctimai Birliyinin sədr müavini Əli Əlisoy çıxış edib, şəhidlərimizə həsr olunan şeir səsləndirib.

Sonda Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri şəhidlərin əziz xatirəsinə həsr olunmuş kompozisiya təqdim ediblər.

**“Şərq qapısı”**











# HƏR KƏS ÜÇÜN YAŞIL DÜNYA



Dünyada insan sayının artıb, insana da lazım olan bütün faydalı təbii nemətlərin sürətlə azaldığı bir dövrdə ölkələrin bitməyən biznes yarışı, soyumayan silahlanma ehtirası və siyasi ambisiyalarının yerinə hər kəs üçün yaşıl dünya naminə həmrəy olması bütün bəşəriyyətin gələcəyini xilas edə biləcək ən düzgün seçimdir. Bu mənada, yaşadığımız “Yer” adlı kiçik planetdə dövlətlərin iqtisadi və hərbi gücündən, yaxud sosial-mədəni inkişaf səviyyəsindən asılı olmayaraq, hamını eyni dərəcədə maraqlandıran yaşıl dünyaya yenidən qovuşmaq üçün bu gün ölkəmizin öz liderliyini ortaya qoyması ümumbəşəri məqsədlərə xidmət edən ən nəcib təşəbbüsdür.

Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ölkəmizin beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verməyə həmişə hazır olduğunu, özünün, bilavasitə, qlobal ekoloji problemlərdən və ekosiddən əziyyət çəkdiyi halda belə məsələlərin yalnız planetar miqyasda həllinə çalışdığının əyani sübutudur. Bu qərar elə bir vacib zamanda verilmişdir ki, artıq ekoloji vəziyyət bəşəriyyətin müasir inkişaf mərhələsində onun varlığı üçün ən mühüm problem dərəcəsinə çatmış, yaşamaq üçün təkcə təmiz ərzaq məhsulları deyil, hətta təmiz hava, su belə ən qıt nemətə çevrilmişdir. Buna görə də insan ayağının dəydiyi hər yerdə müəyyən dərəcədə ekoloji böhranın mövcud olduğunu nəzərə alsaq, dünyada hər kəsin yaşıl gələcək üçün məsuliyyət daşıdığını göstərmək mümkündür.

Ekoloji böhranın isə müxtəlif səbəbləri vardır. Planetdə insan sayının çoxalması ilə sənaye və kənd təsərrüfatı məhsulları istehsalının da artması, plansız və qeyri-rasional təsərrüfat fəaliyyəti, nəqliyyat, hasilat, həmçinin hərbi əməliyyatlar nəticəsində təbiətə atılan tullantılar ekoloji vəziyyəti gərginləşdirən səbəblərdəndir. Yeri gəlmişkən, bu mənada, çoxları haqlı olaraq sənaye, nəqliyyat, yaxud kənd təsərrüfatında havaya və suya atılan zəhərli qarışıqlardan tez-tez danışdıqları halda, nədənsə iri hərbi güclərin yağış kimi səpələdikləri ballistik raketlərin və partlatdıqları bombaların havaya nə qədər tullantı atdıqlarından bəhs etmək istəmirlər. Lakin istənilən halda ekoloji böhranın dərinləşməsi təbiətin ibtidai görüntüsündən uzaqlaşması, biomüxtəlifliyin məhv olması, landşaftın öz əvvəlki görkəmini itirməsi ilə müşahidə olunur. Beləliklə də ekoloji böhranı çox zaman yaşıl təbiətin yox olması ilə izah etsələr də, əslində, bu, dənizlərin dibindən tutmuş kosmosun dərinliklərinə qədər planetin hər yerində insanlığı narahat edən, bütün canlı və cansız təbiətin gələcəyini düşündürən məsələdir. Burada ən son fəlakət isə qeyri-adi xəstəliklərin yayılması və insan ömrünün qısalmasıdır. Ona görə də cəmiyyətdə iqtisadi-mədəni inkişafla paralel olaraq ekomədəniyyətin də formalaşması və onun cəmiyyətin hər bir təbəqəsinə, hər bir fərdə aşılanması, bəşəriyyətin “ətrafımızdakı dünya ilə sülh şəraitində yaşamaq” zərurətinin dərk olunması günün tələbidir.

Yaşıl dünya naminə həmrəylik hərəkatı ölkəmizin məruz qaldığı ekoloji təhdidlər və onların qarşısının alınması üçün apardığı mübarizə və qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi ilə sıx bağlıdır. Azərbaycanın təbii sərvətlərini çapıb-talamış işğalçı Ermənistanın regionda səbəb olduğu ekoloji disbalansın aradan qaldırılması, uzun illər sənayedə mövcud olmuş sovet texnologiyasından yeni ekoloji təmiz üsullara və avadanlıqlara keçilməsi, karbohidrogen enerji ehtiyatlarından alternativ enerji mənbələrinə keçid, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurdakı dağıdılmış ərazilərdə ağıllı yaşayış məntəqələrinin yaradılması və Naxçıvanın yaşıl enerji zonası elan edilməsi qarşıya qoyulmuş mühüm vəzifələrdəndir. Azərbaycan Respublikası bu sahədə dünya birliyi ilə daha sıx əməkdaşlıq etməklə yaxın gələcəkdə daha sağlam bir ekosistem yaradılması, bunun dayanıqlı bir müstəviyə qaldırılması üçün öz gücünü məhz bu vacib sahədə də ortaya qoymaq niyyətindədir.

Dünyaya verilən yaşıl vədlər bu sahədə qəti müəyyən olunmuş hədəflərin və görüləcək işlərin sayəsində mümkün ola bilər. Bu il ölkəmizin ev sahibliyi edəcəyi COP29 – BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası Azərbaycanın dünyada qazandığı güclü mövqedən, müsbət imicdən və göstərilmiş böyük etimaddan xəbər verir. Planetar miqyasda hamının eyni məqsəd altında həmrəy olub bir araya gələ bildiyi ən böyük beynəlxalq birliyin növbəti sammitinin bu dəfə məhz Azərbaycanda keçirilməsi ölkəmizin indiyə qədər bu sahədə qazandığı nüfuza əsaslanır. Dünya inanır ki, Azərbaycan dövləti özünün həyata keçirdiyi ədalətli siyasəti ilə bir çox problemləri kökündən həll edə bildiyi kimi ən azından Cənubi Qafqaz regionunda da yığılıb qalmış ətraf mühit problemlərini də həll edə biləcək gücdədir.

Azərbaycan güclü neft ölkəsidir və özünün quruda və dənizdə sahib olduğu karbohidrogen ehtiyatlarının istismarı və dünya bazarına çıxarılmasında yeni texnologiyaların tətbiqi və etibarlı əməkdaşlıq baxımından dünyada nüfuz sahibidir. Bu baxımdan 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması təkcə ənənəvi enerji mənbələrindən yaşıl enerji mənbələrinə keçidlə deyil, eyni zamanda həyatın bütün sahələrində planetin gələcəyi üçün düşünmə və bərabər hərəkət etmə vərdişlərinin gündəlik yaşayış normasına çevrilməsi üçün əlverişli fürsət ili olacağını göstərmək mümkündür. Bunun üçün isə cəmiyyətin hər bir fərdinin hər hansı bir işin, yaxud konkret layihənin ekoloji nəticələri haqqında təsəvvürə malik olması, təbiətin mühafizəsi sahəsində hüquq və vəzifələrin həyata keçirilməsində məsuliyyəti tələb olunur. Bu mənada, “Yaşıl dünya naminə həmrəylik ili”ndə görüləcək işlərin işıqlandırılması, təbliğat və maarifləndirmə tədbirləri baxımından da qarşıda ciddi vəzifələr dayanır. Hesab etmək olar ki, insanın bütün fəaliyyəti boyunca sanitar tələblərə əməl olunması, cəmiyyətdə ekoloji təfəkkürün inkişaf etdirilməsi, yaşıllıqlara qayğı və onların sahəsinin artırılması, torpağın və suyun mühafizəsi, tüstüsüz nəqliyyata keçid, hətta inşaat işlərində düzgün məkanın seçilməsi kimi məsələlər qarşıdakı günlərdə təhlil olunacaq, hər bir insanın fərdi istehlakında, işində, turizm səyahətində və adi istirahətində yaşıl dünyaya hansı töhfələr verə bildiyini dəyərləndirməsi mümkün olacaq. Çünki yaşıl dünya məqsədinə çatmaq hər kəs üçün də eyni düşüncə və eyni yanaşmanı tələb edir.

**Əli CABBAROV**

# Naxçıvanın muxtariyyəti

## tarixi zərurətdən yaranmışdı

*(əvvəli 1-ci səhifədə)*

ABŞ-da yaşayan, “Unudulmuş genosid”, “Erməni təbliğatının ikiüzlülüyü və yalanı” kitablarının müəllifi milliyyətcə gürcü Feliks Sersvadze 2005-ci ildə Nyu-Yorkda nəşr olunmuş “Ermənistan və Dağlıq Qarabağ. Miflərin formalaşdırılması” kitabında yazır ki, 1799-cu ildə erməni arxiyepiskopu İosif Donda erməni muxtariyyəti təşkil etmək qərarına gəlir. Bu məqsədlə o həmin əraziyə Türkiyə və Krımdan köçürülmüş on minlərlə erməni gətirdi və hətta gələcək muxtariyyətin paytaxtı kimi – Don üzərindəki “Naxçıvan” adlı şəhər də saldı. Rusiya hakimiyyətindən əla güzəştlər aldı: erməni əmlakının Krımdan dövlət hesabına daşınması, iribuynuzlu malqaranın saxlanması üçün bir neçə min desyatin torpaq, 10 il ərzində vergilərdən sərbəst olmaq, erməni gənclərinin rus ordusunda xidmətdən azad edilməsi. Bundan başqa, hər ev sahibinə 30-40 desyatin torpaq, ev tikmək üçün pulsuz inşaat materialları ayrıldı. Toxum, mal-qara və iş alətləri 10 illiyinə verilirdi… Rusiya hakimiyyət dairələri ermənilər üçün böyük güzəştlərə gedir, hətta şəhər salmağa icazə verirdilər, lakin muxtariyyət yaratmağa qətiyyətlə icazə vermədilər. Yuxarıda adıçəkilən Don üzərindəki Naxçıvan şəhəri sonradan Rostov-Don şəhərinin tərkibində “əridi” və itdi. Amma Donda yaşamaları ermənilərə özlərini “Don kazakları” adlandırmaları üçün bəhanə verdi…

Maraqlıdır, ermənilər niyə yerləşdikləri bu yeri “Yeni Naxçıvan” adlandırmalı idilər?

Hamımıza məlumdur ki, qədimdən də qədim olan Naxçıvan Nuh Peyğəmbərin quruya ilk ayaq basdığı torpaqdır. Yəni bəşər sivilizasiyasının ikinci yaranışı bu müqəddəs yerdən başlayır. Ermənilər də hər kəsə özlərini qədim sivilizasiyanın bir hissəsi olduqlarını sübut etmək üçün Nuhun övladlarının soyundan gəldiklərini sırımağa çalışırlar. Erməni alimləri Nuhun vətəni olan Naxçıvanı “Naxiçevan” formasına salmaqla sözü iki hissəyə ayırır və “Nax” hissəsini “birinci”, “ilkin”, “icevan” hissəsini isə “çıxış yeri”, “dayanacaq” kimi izah edirlər. Halbuki ermənicə “ilkin” ifadəsinin qarşılığı “himnakan”, “çıxış yeri”, “dayandığı yer” ifadəsinin qarşılığı isə “vayrejk”dir. Ancaq indiyə kimi heç kim Naxçıvanın adına heç bir mənbədə “Himnakan vayrejk” kimi rast gəlməyib. Türk dillərində isə, xüsusən Azərbaycan türkcəsində bu ifadə çox sadə və asan “Nuh çıxan yer” kimi izah olunur.

Məncə, əlavə şərhə ehtiyac yoxdur. Artıq 2024-cü ildir və Naxçıvan öz muxtariyyətinin 100-cü ildönümünü qeyd edir. Bu gün Naxçıvan qalib Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi bölgə maraqlarından çıxaraq Şərq-Qərb tranzitində açar rolunu oynayan region kimi diqqət çəkir. Zəngəzur dəhlizinin açılmasından sonra mühüm nəqliyyat habına çevriləcək qədim diyar həm də Cənubi Qafqazın iqtisadi inkişafına və təhlükəsizliyinə öz töhfəsini verəcəkdir.

**Səbuhi HƏSƏNOV**



*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində bir şəhid anasının övladı haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Naxçıvan şəhərinin Əliabad qəsəbəsindən olan şəhidimiz Bağır Ələkbərovun anası Ələviyyə Ələkbərovanın övladı haqqında xatirəsi yer alıb.*

# 100 ilin qəhrəmanları

## Bağır Əsəd oğlu Ələkbərov

*10.02.1995-14.10.2020*



## "Qapımızdan bayraq asın", – deyən şəhidimiz Bağır

Bağır balaca vaxtlarından onu tanıyanların sevimlisi idi. Kim Bağırı görürdü, soruşurdu ki, Bağır, sən niyə belə şirinsən. Deyirdi, mənə bal sürtüblər, ona görə belə şirinəm.

Yaşadığımız evi Bağır tikib. Hər divarında, daşında Bağırın izi var. Atası hərbçi idi. Qardaşı Gəncədə oxuyurdu. Ona görə Bağır bütün işləri özü təkbaşına görürdü. Hətta evin son işləri tamamlananda dedi ki, ata, anamı heç vaxt gəzməyə aparmamısan. İndi işlər qurtardı. Anamı da götür, gedin gəzin.

2014-cü ildə XTQ-də xidmətə başladı. Hərbiyə marağı çox idi. Gözünü açıb atasını hərbçi görmüşdü Bağır. Bakı şəhərində keçirilən snayperçilərin yarışında iştirak edərək yer tutmuşdu.



Müharibə başlayan vaxt idi. İşdən gəlib oturdu. Televizorda şəhidlərimizi göstərirdilər. Yoldaşı da, mən də ağlayırdıq. Dedi ki, ana, şəhidə ağlamazlar. Onunla fəxr edərlər ki, şəhid olub. Yoldaşı da baxıb dedi ki, can, ay analar. Yoldaşına qayıtdı ki, şəhidlikdən də yaxşı hədiyyə var? Ta ki bizim hər birimizə belə ölüm nəsib olsun. Onun özünə də belə ölüm nəsib oldu.

Bir gün də işdən gəldi ki, şəhərə şəhid gətiriblər, atam ora gedibmi? Mən də bildirdim ki, atanın təzyiqi qalxıb. Dedi: "Ana, atamdan xahiş et ki, ora getsin. Bir də de ki, qapıya bayraq vursun". Mən də qələbə qazanandan sonra mütləq vuracağımızı dedim. Bağır, yəqin, bilirdi ki, bir ömür bizim qapıda bayraq dalğalanacaq.



Müharibəyə getməmişdən qabaq bütün yoldaşları evlərinə göndərildiyindən Bağır evə gəlmədi. Günorta atasına zəng vurdu ki, ata, biz gedirik dağa. Atası dedi ki, Naxçıvanda heç nə yoxdu, dağa niyə gedəsiniz? Bir az keçdi, atası yenidən zəng etdi. Dedi, ata, artıq biz hava limanındayıq. Qarabağa gedirik. Sonra oğlu Əsəd telefonu aldı. Dedi, ata, min təyyarəyə gəl. Dedi, oğlum, gələcəyəm. Amma balam özü gəlmədi. Özündən qabaq şəhid xəbəri gəldi. Bağırın dediyi kimi qapımızdan bayraq asıldı. Biz və övladları yaşadığı müddətcə o bayraq qapımızda dalğalanacaq!

*Ana, məzarım üstə düzmə*
*gülü, çiçəyi,*
*Vətənə qurban etdim mən*
*döyünən ürəyi.*
*Axı özün deyirdin beşiyimin*
*başında:*
*"Bu Vətənin oğlunun yerə*
*dəyməz kürəyi".*

**Manya Səxavətqızı**

### Əfsanəyə dönən ömürlər

## Bu Vətənin oğlunun yerə dəyməz kürəyi

2024-cü il. Yeni ilin ilk günləridir. Təqvimə baxıram. 5 yanvar. Bir anda Vətən uğrunda canlarını qurban vermiş zəfər qəhrəmanlarımız diqqətimdə canlanır. Hər an, hər dəqiqə ruhən yanımızda olan zəfər qəhrəmanlarımız! Qarabağımız üçün canından keçən, torpağımızın hər qarışı üçün son damla qanına qədər vuruşan, ən ali zirvəyə ucalan zəfər qəhrəmanlarımız!

Bu gün Gülşad ananın ziyarətinə gedəcəyik. Şəhidimiz Emin Sadiqovun anası. İçimdə bir həyəcan var. Bu gün Gülşad ana ilə birlikdə Eminimizin 22 illik ömrünün səhifələrini vərəqləyəcəyik. Bu düşüncələrlə evdən çıxıram. Jurnalist tələbələrim Rafiq və Nəzrinlə birlikdə yola düşürük. Göz işlədikcə uzanan yollar bizi şəhidimizin evinə aparır. Anbaan yaxınlaşan yollar məsuliyyətimizi sanki daha da artırır. Yolboyu şəhidlərimizin şəkillərindən bizlərə baxan nur üzlü simaları ilə qarşılaşırıq.

Saat $11^{00}$... Şəhid Emin Sadiqovun evinin qarşısındayıq. Ruhumuzu daxili bir həyəcan sarıb. Qapını döyürük. Qapı üzümüzə səmimiyyətlə, mehribanlıqla açılır. Gülşad anamızın nurlu, güləryüz siması ilə qarşılaşırıq. Qadının çöhrəsindən məğrurluq yağır. Oğlunun görüşünə gələn hər kəsi belə qarşılayır anamız. Məğrur, qürurlu, böyük fəxr hissi ilə.

Stol ətrafında əyləşmişik. Əvvəlcədən gələcəyimizi bilən Gülşad ana hazırlıq görüb. Eminin nənəsi Qiymət xanımın mehriban siması ilə üz-üzəyik. Çaylarımızdan qalxan isti buxar sanki bu ocağın hərarətini əks etdirir. Söhbətə necə başlayacağım haqqında düşünürəm. Necə, nədən başlayım ki, anamızın qəlbində qaysaq tutmuş yaranı qanatmayım. Gülşad ana isə mehriban çöhrəsi ilə bizi süzür. Sanki illərdir, bizi tanıyır. Bu mehribançılıq qarşısında təsirlənməmək mümkün deyil. Otağa göz gəzdirirəm. Evin hər tərəfində Eminin güləruz, saf, bir o qədər də məğrur olan siması ilə qarşılaşıram. Gülşad ana ilə birlikdə Eminin otağına keçirik. Emin dolu bir otağa!



Zamanın durduğu bu otaqda hər şey qəhrəmanımızı xatırladır. Uşaqlıq oyuncaqları, kitabları, geyimləri, mükafatları, saysız-hesabsız şəkilləri... Körpəlik, uşaqlıq, yeniyetməlik, gənclik dövrü. Böyüdükcə mehriban baxışları altında qürur, məğrurluq hiss etdirən, Vətəninə, torpağına bağlı Emini görürük. Sanki Emin dolu bir dənizin dalğalarındayıq. Otağın hər tərəfində şəhidimizin mehriban nəzərləri ilə əhatə olunmuşuq. Ehtiyatla əşyalara toxunuruq. Albomları vərəqləyirik. Gülşad ana böyük həvəslə şəkillərdə əbədiləşdirilən anlar haqqında məlumat verir. Diqqət edirəm. O qədər həvəslə, o qədər maraqla danışır ki. Eyni zamanda böyük qürur və fəxrlə. Emin Gülşad ananın tək övladı olub. Ananın bütün xatirələrində yeganə övladı şəhidimiz Emin var. Söhbətimizə başlayırıq. Özü də gülümsəyərək danışır məğrur anamız. Danışarkən çöhrəsində yaranan təbəssümün arxasında heç kimə göstərmək istəmədiyi dərin həsrəti sezirəm. Şövqlə parlayan bir cüt məğrur baxışın dərinliklərində olan övlad həsrəti. Nə qədər göstərmək istəməsə də, şəhidimizin həsrəti ananın gözlərinə hopub. Emin 10 yaşında olarkən atası qəfil ürək tutmasından dünyasını dəyişib. Ən böyük arzusu oğlunu hərbçi görmək olub. Emin atasının arzusunu reallaşdırıb. Uşaqlıqdan idmanla məşğul olub. Böyüdükcə içində Vətənə xidmət etmək arzusu daha da güclənib. 44 günlük Vətən müharibəsində böyük şücaət göstərərək verilən bütün tapşırıqların öhdəsindən yüksək səviyyədə gəlib, qəhrəmanlıqla şəhid olub.

Gülşad ana Eminlə bağlı danışır. Emin köksündən güllə alıb. 4 gün əsgərlərimizlə Qırmızı Bazar yaxınlığında düşmən mühasirəsində qalıb. Komandiri ilə birlikdə şəhidlik zirvəsinə yüksəlib. Snayperlə vurulan komandirinə yardım edərkən qəhrəmancasına şəhid olub. Ehtiyatla şəhidimizin şəhadətə yüksəldiyi an üzərində olan və güllə yarası ilə deşilən vəsiqəsinə toxunuram. Eminin məğrur gözlərini Vətən torpağına dikdiyi son anın şahidi olan vəsiqə... Qəhrəmanımızın şəhidlik zirvəsinə yüksəldiyi anı xəyalımda canlandırmağa çalışıram. Gözlərimin önündə Eminin səmalara baxan təbəssüm dolu çöhrəsi canlanır. Bu çöhrədə həm əzəmət, qorxmazlıq, böyük iradə, həm də daha çox bölgəni azad etmək üçün son dəfə çırpınan məğrur qəlbin gözlərə sirayət edən nisgilini görürəm. Ən böyük arzusu Şuşa uğrunda aparılan döyüşlərdə iştirak etmək, düşmənə qarşı qəhrəmancasına vuruşmaq olub. Eminin bu arzusu reallaşmadı. Ancaq şəhidimizin bu istəyi Vətən oğullarımız tərəfindən gerçəkləşdi. Eminə bu döyüşü gülümsəyərək səmalardan izləmək nəsib oldu. Azad Şuşa, doğma Qarabağın düşmən tapdağından xilas olmuş hər qarışı qəhrəmanın ruhuna fərəh bəxş etdi. Döyüşə gedərkən Gülşad anaya martda qayıdacağını söz vermişdi. Ancaq Emin martı gözləmədi. Vətən torpağı uğrunda canını fəda edib müqəddəs bayrağımıza bürünərək anasının görüşünə gəldi. Əgər Emin indiyədək bir tək Gülşad ananın oğlu idisə, şəhidlik zirvəsinə yüksəldiyi andan etibarən bütün Azərbaycanın oğluna çevrildi. Şəhidimizin müqəddəs qanı Vətən torpağına qarışdı. Emin Qarabağın özüdür! Emin düşmən tapdağından azad olan, igidlərimizin qanı ilə cana gələn, yenidən dirilən Vətən torpağının bir parçasıdır!

Şəhid Emin Sadiqov ölümündən sonra "Rəşadət" ordeni ilə təltif olunub. Bəli, Sadiqov Emin Rəşadət oğlu "Rəşadət" ordeninə layiq görülüb. Rəşadətli oğulun atasına igidlik rəmzi daşıyan hədiyyəsi. Bu gün Rəşadət atanın da ruhu şaddır. Çünki hərbçi kimi görmək istədiyi oğlu artıq tək onun deyil, bütöv Azərbaycanın oğludur.

Bu gün qalib Azərbaycanımızda artıq Eminimizin, bütün şəhidlərimizin ruhu şaddır. Onun azad ruhu Vətən torpağının hər qayasında, hər daşında dolaşır.

Gülşad ana şəhidimizlə bağlı xatirələrini bizimlə bölüşdükcə çöhrəsində arabir həsrət qarışıq təbəssüm yaranır. Gözlərinin dərinliklərində özünü büruzə verən nisgil bəzən yox olur, bəzən də yenidən canlanır. Ancaq hər şeyə rəğmən Eminlə olan xatirələrini böyük şövqlə anladır ana.

Söhbət boyu otaqda hiss etdiyim bir şey var idi. Şəhidimizin müqəddəs ruhu, isti nəfəsi sanki bizimlə idi. Gülşad ananın da dediyi kimi hər zaman nəfəsini hiss etdiyi övladı sanki ona cəsarət verirdi.

Gülşad ana tək ümidi, tək övladı, tək dayağını Vətənə qurban verdi. Övladı ilə bağlı bütün arzularını, bütün xəyallarını Vətənə əmanət etdi. Başını dik tut, şəhid anası! Sən tək övladını Vətən torpağı üçün fəda etmiş müqəddəs şəhid anasısan! Başınızı dik tutun, şəhid anaları! Sizin övladlarınız tarix yazdı. Siz qalib Azərbaycanın məğrurluq qalasısınız!

**Xumar MƏMMƏDOVA**
*NDU Elmi Kitabxanasının direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Qərbi Azərbaycanın mədəniyyət izləri

## Dünya alimlərinin araşdırmaları sübut etmişdir ki, urartuların ermənilərlə heç bir etnik bağlılığı yoxdur



Qərbi Azərbaycanın obsidian yataqları

*Qərbi Azərbaycanda yerləşən qədim mədəniyyətlərin tədqiqi bunların Azərbaycanda formalaşan mədəniyyətlərlə bağlı olduğunu deməyə imkan verir. Paleolit dövründən başlayaraq bu ərazilər Azərbaycanda məskunlaşan qədim tayfaların vətəni olmuşdur. Neolit və Eneolit dövrlərində Qərbi Azərbaycan Azərbaycanın cənub bölgələrində və Qarabağda məskunlaşan tayfaların yaylaqları olmuşdur. Tunc dövrünün müxtəlif mərhələlərində Qərbi Azərbaycanda yayılan mədəniyyətlər Urmiya hövzəsi, Naxçıvan və Qarabağda yayılan mədəniyyətlərlə ortaq xüsusiyyətlərə malikdir.*

Xalqımızın qürur mənbəyi olan 2020-ci ilin 44 günlük müharibəsi tarixboyu torpaqlarımıza, yurd yerlərimizə göz dikən erməni vandallarına layiqli cavab oldu. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəsiyyətinə əməl edərək 2023-cü ilin 19 sentyabrında antiterror əməliyyatını müvəffəqiyyətlə başa çatdıraraq torpaqlarımızı yadelli işğalından azad etdi. Torpaqlarımızın yadelli işğalından azad olması XX əsrin əvvəllərində sovet dövləti tərəfindən ermənilərə bəxşiş edilən Qərbi Azərbaycan torpaqlarına geri qayıdış məsələsini də gündəmə gətirmişdir. Araşdırmalar göstərir ki, Qərbi Azərbaycanda yerləşən Göyçə mahalının tarixi Qədim Daş dövrünə gedib çıxır. Göyçə hövzəsində Quru Xarabadan aşkar olunan obsidian alətlər burada Paleolit dövründən yaşayış olduğunu göstərir. Lakin indiki Ermənistana qatılan Qərbi Azərbaycan torpaqlarının kimə məxsus olduğunu aydınlaşdırmaq üçün çox da qədimə getməyə ehtiyac qalmır. XIX əsr mənbələrində, xüsusilə rus tədqiqatçılarının əsərlərində Göyçə mahalındakı yer-yurd adlarının türk dilində olması bu baxımdan diqqətəlayiqdir. Rus tədqiqatçısı A.A.İvanovski Rusiya hakimiyyətinə aid ərazilərin təsvirini verərkən bu ərazini "Göyçə gölü hövzəsi" adlandırmışdır. Tədqiqatçı bu sözün "Göyçə", yaxud "Göy çay" olduğunu və türk dilində mavi su anlamında işlədildiyini qeyd etmişdir. Göyçə gölü qərbdən Şorgöl, şərqdən Adtəpə burunlarının bir-birinə yaxınlaşması ilə iki qeyri-bərabər hissəyə ayrılır. Gölün şimal-şərq sahili boyunca uzanan Şahdağ, yerli əhali tərəfindən Güney, ondan qərbdəki dağlar isə Pəmbək adlanır. Hər iki silsilə Kömürlü dağın yaxınlığından keçir. Güney silsiləsinin ən yüksək zirvələri Maralcadağ (2606 m), Soyuqbulaq (2684 m), Kirkitdağ (2749 m), Əyricə (2660 m), Qaraarxac (3057 m), Ginaldağ (3370 m) və digərləridir. Gölün cənubundan şimala doğru Qarabağ silsiləsi uzanır. Gölün cənub-qərb tərəfində Bəkləmiş, Dərələyəz, Gözəldərə, Qaraxlı, Abdul-Hassar, qərbdə Əyricə, Ağdağ, Üçtəpə və digər dağ silsilələri vardır. Bu yer adlarının siyahısını daha da artırmaq olar və bunların içərisində heç bir erməni adına rast gəlinmir. Sadəcə, bəzi yer adları rus sözləri ilə əvəz edilib.

Göyçə hövzəsində yerləşən Göyhasar və Göyəm obsidian yataqları qədim dövrlərdən Azərbaycan ərazisində yerləşən I Kültəpə, Naxçıvantəpə, Uçan Ağıl, Ovçular təpəsi, Zirincli və digər yaşayış yerlərində məskunlaşan tayfalar tərəfindən istismar olunub. Daha doğrusu, bu yerlər Urmiya hövzəsi, Qarabağ və Naxçıvanda məskunlaşan tayfaların yaylaqları olub. Azərbaycanın Neolit dövrü tayfaları istehsal təsərrüfatını yüksək səviyyədə mənimsəmişdilər. Köçmə maldarlıqla məşğul olan bu tayfalar qonşu ərazilərlə əlaqə saxlaya bilmiş, Göyçə və Zəngəzuradək gedib çıxmışdır. Göyçə hövzəsinin və Zəngəzur obsidianlarının bu tayfalar tərəfindən istifadə olunması bunu təsdiq edir. I Kültəpə sakinləri Göyçə obsidianından eradan əvvəl VII minilliyin ikinci yarısından başlayaraq istifadə etmişlər. Obsidian yataqları Naxçıvanda və şimal-qərbi İranda yoxdur. I Kültəpə sakinləri başlıca olaraq Zəngəzur (49 faiz) və Göy-



Naxçıvantəpə obsidianlarının analizinin nəticələri

çə hövzəsində yerləşən Göyhasar (50 faiz) obsidianından istifadə etmişdir. Naxçıvantəpədəki obsidian alətlərin araşdırılması Göyçə, Zəngəzur və Şərqi Anadolu obsidianından istifadə olunduğunu göstərmişdir. Son araşdırmalar zamanı müəyyən olunmuşdur ki, Zəngəzur obsidianı üstünlük təşkil edir. Digər yataqların obsidianlarından isə olduqca az istifadə edilmişdir. Qarabağda yerləşən Çalağantəpə və Töyrətəpə yaşayış yerlərinin sakinləri də Göyhasar obsidianından istifadə etmişdir. Qeyd etmək lazımdır ki, I Kültəpə yaşayış yeri Göyçə obsidianından istifadəyə görə Cənubi Qafqazda xüsusilə üstün mövqeyə malikdir. Buna görə də Kültəpədə məskunlaşan tayfaların obsidian yataqları ilə birbaşa əlaqəsinin olduğunu demək olar. Zəngəzur və Göyhasarın obsidian yataqları Eneolit dövründə də geniş istifadə olunmuşdur. Belə ki, Naxçıvantəpədə Zəngəzur obsidianı 42 faiz, Göyhasar obsidianı isə 37 faizdir. Ovçular təpəsi yaşayış yerində isə obsidianın 74 faizi Göyhasardan, 13 faizi isə Zəngəzurdan gətirilmişdir. Arazdan cənubda yerləşən yaşayış yerləri də Naxçıvandan 45 kilometr şimalda yerləşən Zəngəzur obsidianından (95 faiz) istifadə etmişdir. Urmiya hövzəsində Xoy ovalığındakı obsidianların analizi Nemrut Dağ və Zəngəzur obsidianının çoxluq təşkil etdiyini göstərmişdir. Dava Göz yaşayış yerində də Zəngəzur obsidianından istifadə çoxluq təşkil edir. Şübhəsiz ki, obsidian mənbələrinin istismar edilməsi regionlararası əlaqələrin yaranmasında müəyyən rol oynamışdır. İstər Dalmatəpə, istərsə də Ovçular təpəsi mədəniyyətinin yayılma arealı Naxçıvan torpaqlarının Azərbaycanın cənubda yaşayan tayfaları ilə şimalda yaşayan tayfaları arasında körpü rolu oynadığını göstərir. Bu vəsilə ilə Azərbaycanın cənubundakı mədəniyyətlər şimala doğru yayılaraq Ağrı bölgəsi, Göyçə hövzəsi və Zəngəzuru əhatə etmişdir.

Bədxah qonşularımız uzun müddət, xüsusilə sovetlər dövründə Azərbaycanın cənub bölgələrində yayılan mədəniyyətləri öz adlarına çıxmağa çalışmış, abidələrin və mədəniyyətlərin adlarını belə saxtalaşdırmışlar. Neolit dövrünə aid olan Mahaltəpə və Xatunarx yaşayış yerlərini uyğun olaraq Arataşen və Aknaşen adlandırmışlar. Orta Tunc dövründə İrəvan yaxınlığındakı Təzəkənd kəndi ilə bağlı olan "Təzəkənd mədəniyyəti"ni Karmirberd mədəniyyəti kimi qələmə vermişlər. Lakin onların bu saxtakarlığı elm aləmində möhkəmlənə bilməmişdir. Azərbaycan tədqiqatçılarının Şərur rayonundakı Qızqala yaşayış yerində apardığı araşdırmalar Orta Tunc dövrü "Boyalı qablar mədəniyyəti"nin Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda məskunlaşan oturaq və köçmə həyat tərzini mənimsəmiş tayfa-






Orta Tunc dövrünün boyalı qablar mədəniyyəti


Xocalı-Gədəbəy tipli çölmək

lar tərəfindən yaradıldığı, Göyçə hövzəsinə doğru uzanan yaylaqların Naxçıvanda yaşayan tayfaların məskəni olduğu sübut edilmişdir. Qızqala kurqanlarındakı insan skeletlərinin dişlərindən götürülən izotopların analizi Orta Tunc dövrü tayfalarının Şərur rayonunda Arpaçay vadisində məskunlaşdığını, yayda Arpaçay vadisi boyunca Göyçə hövzəsinə doğru irəlilədiyini və bu bölgədəki yaylaqlarda yerləşdiyini göstərir.

Rus tədqiqatçıları Göyçə hövzəsində "Quru Xaraba" adlı yerdə qeydə alınan kurqanların Monqolustanda Orxon vadisində aşkar olunan kurqanlarla bənzər olduğunu qeyd etmişlər.

Son Tunc və Erkən Dəmir dövrlərində Qarabağ və Gədəbəydə formalaşan Xocalı-Gədəbəy mədəniyyəti Göyçə hövzəsi, o cümlədən Dilican, Lorut, Calaloğlu, Zəngəzur, Xudafərin və Urmiya hövzəsini əhatə edən böyük bir regiona yayılmışdır. Bu mədəniyyətin formalaşdığı regionda yaşayan Etiuni tayfaları Urartu dövlətinə qarşı kəskin müqavimət göstərmiş, onların Azərbaycan torpaqlarını işğal etməsinə imkan verməmişdir. Yeri gəlmişkən qeyd edək ki, dünya alimlərinin araşdırmaları sübut etmişdir ki, urartuların ermənilərlə heç bir etnik bağlılığı yoxdur. Yaxın Şərqin böyük dövlətlərindən biri olan Urartunun ilk paytaxtı indiki Suriya ərazisindəki Suqunia, sonra Arzaşkun, eradan əvvəl IX əsrdə isə Van gölü sahilindəki Tuşpa olmuşdur. Eradan əvvəl VIII əsrdə onlar Cənubi Qafqaza yürüş edərək indiki Ermənistanda Erebuni, Teyşebani və Argiştihinili adlı üç şəhər inşa etmiş, bu şəhərlərin Aza qəbiləsindən olan yerli əhalisini köçürmüş və onların yerinə Çupani bölgəsindən olan insanları yerləşdirmişlər.

Göyçə mahalında Kolanı, Zağalı və Ördəkli kəndləri yaxınlığında olan mixi yazılar urartuların bu bölgələrə hücumlarından xəbər verir. Ördəkli kitabəsində Urartu hökmdarı Argiştinin Göyçə gölünün şimalında yerləşən Kiexuni ölkəsinin şəhərlərini işğal etdiyini yazmışdır. Ermənilər sonradan bu adı dəyişdirərək Keqaxuni adlandırmışlar. Qeyd etmək istəyirik ki, Zağalı kitabəsi tapılanadək Urartu dövlətinin adı yalnız Assur mənbələrindən məlum idi. II Sardurinin dövrünə aid Zağalı kitabəsində ilk dəfə olaraq bu dövlətin adına rast gəlinmişdir. Lakin urartular yalnız bu ərazilərə işğalçı yürüşlər etmişlər. Urartu hökmdarlarının mixi yazılarda lovğalıqla bu bölgənin şəhərlərini işğal etdiklərini yazmalarına baxmayaraq, onlar yerli əhalinin müqavimətinə rast gəlmiş və bu bölgədə şəhərlər inşa edə bilməmişlər. Urartu hökmdarları heç vaxt məğlubiyyətləri etiraf etməmişlər. Lakin biz onların məğlub olduğunu Assur mənbələrindən yaxşı bilirik. Yazılı mənbələrdə skiflərin məskunlaşdığı Qarabağ bölgəsi İşkuqulu ölkəsi olaraq xatırlanmışdır. Kimmerlər isə Göyçə hövzəsində məskunlaşmışdılar. Assur kəşfiyyatının hökmdara yazdığı məktubların birində Urartu birliklərinin Kimmer ölkəsində ağır məğlubiyyətə uğramasından və baş komandanın əsir düşməsindən yazılmışdır. Mənbələrin məlumatına görə, köçəri Kimmerlər Urartunun bir yanından girib o biri yanından çıxmış və bu məğlubiyyət zamanı sərkərdələrini itirən Urartu zəifləmiş, Assur hökmdarı II Sarqonun hücumuna məruz qalmışdı.


Xocalı-Gədəbəy tipli silahlar

Bu dövrdə Qərbi Azərbaycanda məskunlaşan qüdrətli tayfalardan biri də Etiuni tayfaları idi. Bu tayfalar Xocalı-Gədəbəy mədəniyyətinin varisləri idi. Azərbaycanın qərb bölgələrinin antik mənbələrdə Otena adlanması heç də təsadüfi deyil. Urartu mənbələrində ən çox xatırlanan tayfalardan biri Etiuni tayfalarıdır. Etiuni tayfaları Urartu mənbələrində Göyçə gölü sahilində xatırlansa da bu ölkənin Naxçıvana qədər uzandığını və Naxçıvanı da əhatə etdiyini demək olar. Naxçıvanın yaxınlığında, Sisianda tapılan mixi yazıda Urartu hökmdarı II Argişti belə demişdir: "Etiuni ölkəsinin kralı gəldi və ölkəsinin vergisini mənə verdi". Bu yazıdan məlum olur ki, Etiunilər xərac verməklə öz müstəqilliklərini qorumuşlar.

Bədxah qonşularımız tarixi gerçəkliyi hər zaman dəyişdirməyə çalışmış, tarixi türk torpaqlarını öz adlarına çıxmışlar. Onlar elə Göyçə gölünün adını da dəyişdirərək Sevan adlandırmışlar. "Sevan" sözünün etimologiyası ilə bağlı müxtəlif fikirlər var. Bu ad XIX əsr rus mənbələrində Sevanq şəklində xatırlanmışdır. Sevanq adı Göyçə gölündəki adaya verilmişdi. Bəziləri bunu xristian dininin təbliğatçısı Müqəddəs Qriqorinin adı ilə bağlayırlar. Guya ki, o belə demişdir: "Sa vanq, yəni budur monastr". Digər bir mülahizəyə görə, Sevan adı Senq Vanq sözündən törəmiş və mənası erməni qara kilsə deməkdir. Bu adada vaxtilə kilsə olmuş və erməni qriqorian kilsəsinin əleyhdarları bura sürgün edilmiş, buna görə qara kilsə adlandırılmışdır. Buna görə də ada Sevanq adlanmışdır. Ancaq bu adın Göyçə gölünə 1930-cu ildə verildiyini nəzərə alsaq, onun yamaqdan başqa bir şey olmadığını anlamaq o qədər də çətin olmaz.

*Arxeoloji abidələrin tədqiqi, Qərbi Azərbaycan mədəniyyətlərinin Azərbaycanın Urmiya, Naxçıvan və Qarabağ bölgələrindəki mədəniyyətlərlə ortaq xüsusiyyətlərə malik olması, həm qədim mənbələr, həm də rus mənbələrində xatırlanan toponimlər və tayfa adları Göyçə və Zəngəzurun qədim dövrlərdən Azərbaycan xalqına məxsus olduğunu təsdiq edir. Tarixi faktlar Qərbi Azərbaycanın həm mədəni, həm də etnik baxımdan Azərbaycanın ayrılmaz bir parçası olduğunu sübut edir.*

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*




# Prezident Seçkiləri Günüdür

## Seçicilərin rahat səs verməsi üçün hər cür şərait yaradılıb



Bu il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkiləri böyük Zəfərimizdən sonra yaranan yeni reallığın tələbi idi. Zəfər seçkisi kimi tarixə düşəcək növbədənkənar prezident seçkiləri suverenliyini və ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycanın qürur tarixinə növbəti səhifə kimi yazılacaq.

Naxçıvan Muxtar Respublikasında da seçkilərə hazırlıq işləri ən yüksək səviyyədə aparılır.

6 saylı Ordubad-Culfa Seçki Dairəsinin sədri Həsən Həsənov "Şərq qapısı" qəzetinə müsahibəsində bildirdi ki, seçkilərin yüksək səviyyədə keçirilməsi üçün lazım olan hər şərait yaradılıb. Belə ki, məntəqələr avadanlıqlarla, seçki materialları ilə təmin olunub. Katib, üzv və müşahidəçilər üçün yerlər ayrılıb. Eyni zamanda məntəqə seçki komissiyasının üzvləri üçün seçki günü seçkinin keçirilməsi və protokolların doldurulması ilə əlaqədar gündəlik treninqlər keçirilib.

Seçki dairəsinin sədri məlumat verdi ki, 6 saylı Ordubad-Culfa Seçki Dairəsi üzrə 63 seçki məntəqəsi yaradılıb. Bu seçki məntəqələri üzrə 46 min 138 nəfər seçici qeydə alınıb. İlk dəfə səs verəcək seçicilər dairə seçki komissiyası üzrə 80 nəfərdir. Ən yaşlı seçici 1923-cü il təvəllüdlü Səfərov Abdulla Qasım oğlu 46 saylı (Yaycı) məntəqədə qeydə alınıb. Dairə seçki komissiyası üzrə 7 məntəqədə veb-kamera quraşdırılıb. Onlardan 5-i Ordubad, 2-si Culfa rayonu ərazisində yerləşir. Sağlamlıq imkanları məhdud şəxslər üçün də daşınan qutu vasitəsilə səsvermə imkanı yaradılacaq.

6 saylı Ordubad-Culfa Seçki Dairəsinin 6-2 saylı seçki məntəqəsi Ordubad şəhər musiqi məktəbində yerləşir. Məntəqə seçki komissiyasının sədri Nicat Rzayev bildirdi ki, bu seçki məntəqəsi üzrə 1473 seçici qeydə alınıb. Burada da seçicilərin rahat səs verməsi üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, sözügedən seçki dairəsi üzrə seçicilərin ən çox səs verəcəyi yer Ordubad rayonunun Dəstə kəndində yerləşən 6-18 saylı seçki məntəqəsidir. Bu seçki məntəqəsi üzrə 1491 nəfər qeydə alınıb.

Güntac ŞAHMƏMMƏDLİ




## İlk dəfə səs verəcək tələbələr üçün infosessiya keçirilib



Yanvarın 24-də Naxçıvan Dövlət Universitetinin nəzdində olanTexniki Kollecdə 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində ilk dəfə səs verəcək tələbə-gənclər üçün seçki hüququ ilə bağlı maarifləndirici infosessiya keçirilib.

Texniki Kollecin direktoru Asəf Ruşanov bu il ilk dəfə səs verəcək gəncləri seçkilərdə səsvermə hüququ qazanmaları münasibətilə təbrik edib, keçirilən tədbirin mahiyyəti barədə məlumat verib.

Sonra 4 saylı Naxçıvan Şəhər Dairə Seçki Komissiyasının sədri Çingiz Həsənli gənclərə səsvermə proseduru, seçki günündək və seçkilər zamanı bilməli olduqları zəruri hüquqi məsələlər haqqında məlumat verib, tələbələri maraqlandıran sualları cavablandırıb.

Görüş Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı və Mərkəzi Seçki Komissiyasının (MSK) dəstəyi ilə gerçəkləşib. İnfosessiyanın keçirilməsində məqsəd seçki sistemi, seçicinin hüquq və vəzifələri barədə gənclərin maarifləndirilməsi, habelə baş tutacaq seçkilərdə ilk dəfə seçici kimi iştirak edəcək tələbələrin məlumatlılıq səviyyəsinin və seçici fəallığının artırılmasıdır.

Qeyd edək ki, analoji maarifləndirmə tədbiri Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində də keçirilib.

Xəbərlər şöbəsi

## MSK seçicilərə səsvermə hüququndan istifadə etməklə bağlı bildirişlər göndərməyə başlayıb

Mərkəzi Seçki Komissiyası (MSK) vətəndaşlara seçki hüququndan istifadə etməklə bağlı çağırış edib. MSK-nın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə layihəsi çərçivəsində seçicilərin məlumatlandırılması üçün mobil operatorlar vasitəsilə vətəndaşlara seçki hüququndan istifadə etməklə bağlı bildirişlər göndərilməyə başlanılıb.

Bildirişlər yanvarın 23-dən etibarən göndərilir.

## Hüquq guşəsi

***Sual: Vətəndaşların seçki hüquqlarının pozulmasına görə qanunvericilikdə hansı məsuliyyət nəzərdə tutulub?***

**Cavab:** Seçki Məcəlləsinin 112.1-ci maddəsinə əsasən seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının vəkil edilmiş şəxsləri, müşahidəçilər, habelə seçki komissiyaları vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər. Göstərilən xüsusatlarla bağlı şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər.

Azərbaycan Respublikası Cinayət məcəlləsinin 159-cu maddəsinə görə vətəndaşın seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə mane olmağa görə – min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya üç yüz saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Vətəndaşı namizədin lehinə imza atmağa məcburetmə və ya namizədin müdafiəsi üçün imza yığılmasına mane olmağa görə – iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd yüz saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Vətəndaşı öz iradəsinə zidd səs verməyə məcburetmə və ya onun səs verməsinə mane olmağa görə isə – iki min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya dörd yüz saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Azərbaycan dövləti Azərbaycan Respublikası vətəndaşlarının iradəsinin azad ifadə edilməsinə seçki hüququnun prinsip və normalarının müdafiə edilməsi yolu ilə təminat verir.

Səttar ƏSGƏROV
*Naxçıvan Muxtar Respublikası prokurorunun mətbuat xidməti üzrə köməkçisi, ədliyyə müşaviri*

## Seçici qeydiyyatı yüksək səviyyədə təşkil olunub

Məlum olduğu kimi, bu il ölkəmizdə fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkiləri keçiriləcək. Bu seçkilər həm də ölkəmizin müstəqillik tarixində ilk dəfə olaraq suverenliyini və ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycanın bütün bölgələrini əhatə edəcək.

Naxçıvan Muxtar Respublikasında da növbədənkənar prezident seçkilərinə böyük hazırlıq işləri görülür. Seçki məntəqələrində seçicilərin rahat, sərbəst, şəffaf şəraitdə səs vermələri, müşahidələrin aparılması üçün hər cür şərait yaradılıb.

"Şərq qapısı" qəzeti muxtar respublikada yerləşən dairə seçki komissiyaları üzrə ilk dəfə seçkilərdə iştirak edəcək və yaşı 100-ü ötmüş seçicilərlə maraqlanıb.





1 saylı Şərur-Sədərək Dairə Seçki Komissiyasının sədri Niyaz Əsgərov bizimlə söhbətində bildirdi ki, bu dairə üzrə ilk dəfə səsverənlərin sayı 2801 nəfərdir. Yaşı 100-dən yuxarı seçici qeydə alınmasa da, ən çox seçicinin qeydə alındığı seçici məntəqəsi 1-15 saylı məntəqədir ki, bu məntəqədə 1448 seçicinin səsvermədə iştirak edəcəyi gözlənilir.

2 saylı Şərur-Kəngərli Seçki Dairəsində isə 100 yaşını haqlamış iki seçici var. Onlardan biri Kəngərli rayon Qıvraq qəsəbə sakini Hüseynəliyeva Şəraf Muxtar qızı (01.07.1920), digəri isə Şərur rayon Çəmənli kənd sakini Quliyeva Misri Qulu qızıdır (01.07.1923). Adıçəkilən dairə seçki komissiyasının sədri Kənan Qəhrəmanovdan aldığımız məlumata görə, dairə üzrə ilk dəfə seçkilərdə iştirak edəcək vətəndaşların sayı 2925 nəfərdir. Ən çox seçicinin qeydiyyata alındığı məntəqə isə Şərur rayonunun Çərçiboğan kəndində yerləşən 2-10 saylı seçki məntəqəsidir ki, burada da 1450 nəfərin adı seçici qeydiyyatına alınıb.

3 saylı Babək-Şahbuz-Kəngərli Dairə Seçki Komissiyasından aldığımız məlumata görə, bu dairə üzrə ilk dəfə seçkilərdə iştirak edəcək vətəndaşların sayı 2664 nəfərdir. Dairə üzrə 100 yaşdan yuxarı seçici qeydə alınmasa da ən çox seçicinin səs verəcəyi ünvan Babək şəhərindəki 3-2 saylı və Kəngərli rayonunun Xok kəndində yerləşən 3-56 saylı seçki məntəqələridir ki, bunların da hər birində 1403 seçicinin səs verəcəyi gözlənilir.

4 saylı Naxçıvan Şəhər Seçki Dairəsi üzrə də yaşı 100-dən yuxarı seçici qeydə alınmayıb. Dairə üzrə ilk dəfə seçkilərdə iştirak edəcək seçicilərin sayı isə 2972 nəfər təşkil edir. 4-28 saylı seçki məntəqəsi isə dairə üzrə ən çox seçicinin səs verəcəyi məntəqə kimi müəyyənləşib ki, burada da ümumi seçici sayı 1466 nəfər təşkil edir.

5 saylı Babək-Naxçıvan-Culfa Seçki Dairəsi üzrə 100 yaşdan yuxarı cəmi bir nəfər qeydə alınıb. Bu seçici Babək rayonunun Qahab kəndində 5-18 saylı seçki məntəqəsində qeydə alınmış Fərzəliyeva Fatma Şıxəli qızıdır (01.07.1923). 5-43 saylı məntəqənin seçici siyahısında qeydə alınmış Hacıyeva Simuzər Seyidkərim qızı isə (01.07.1924) Naxçıvan şəhər sakinidir. Bu dairə üzrə 3517 nəfər ilk dəfə olaraq öz səsvermə hüququndan istifadə edəcək. Dairə üzrə ən çox seçicinin qeydiyyata alındığı məntəqə Culfa rayonunun Ərəzin kəndində yerləşən 5-38 saylı seçki məntəqəsidir. Bu məntəqədə 1468 seçici səs verəcək.

Nəhayət, 6 saylı Ordubad-Culfa Seçki Dairəsindən aldığımız məlumata görə, bu dairə üzrə ən yaşlı seçici 1923-cü il təvəllüdlü Səfərov Abdulla Qasım oğludur. Seçicinin adı Culfa rayonunun Yaycı kəndində yaradılmış 6-46 saylı məntəqədə qeydə alınıb. Ümumilikdə isə adıçəkilən dairə seçki komissiyası üzrə ilk dəfə səs verəcək seçicilərin sayı 2635-dir. Seçki dairəsi üzrə seçicilərin ən çox səs verəcəyi yer isə Ordubad rayonunun Dəstə kəndində yerləşən 6-18 saylı seçki məntəqədir. Bu seçki məntəqəsi üzrə 1491 seçicinin qeydiyyata alındığını öyrəndik.

Səbuhi HƏSƏNOV

# Prezident seçkiləri – 2024

7 fevral 2024-cü il – növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri günüdür

Seçkilərdə Azərbaycan Respublikasının aktiv seçki hüququna malik hər bir vətəndaşı respublika ərazisində və ya seçki dairəsinin ərazisində öz təşəbbüsü, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun və seçkilər üzrə fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında müşahidə apara bilər

## Hörmətli seçicilər!

Müşahidə respublikanın bütün ərazisində, bir seçki dairəsinin ərazisində, habelə müvafiq seçki komissiyalarının iclaslarını xüsusi icazə əsasında müşahidə etməklə aparıla bilər.

*Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparmaq niyyətində olan aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına bu barədə ərizə təqdim edə bilər. Hər bir ərizəyə dair qərar onun verildiyi tarixdən başlayaraq 3 gün müddətində qəbul edilməlidir.*

Müşahidənin aparılmasına rədd cavabı yalnız ərizədə göstərilən məlumatlar təsdiq olunmadıqda verilə bilər

Mərkəzi Seçki Komissiyası tərəfindən müşahidənin keçirilməsinə icazə verilmədikdə, həmin vətəndaşın Mərkəzi Seçki Komissiyasının bu qərarından müvafiq apellyasiya instansiyası məhkəməsinə şikayət vermək hüququ vardır.

Müşahidənin aparılmasına icazə verildikdə, müşahidəçiyə Mərkəzi Seçki Komissiyası tərəfindən lövhəcik verilir.

*Seçki dairəsinin ərazisində müşahidənin aparılmasına dair ərizə seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək müvafiq dairə seçki komissiyasına təqdim edilə bilər. Hər bir ərizəyə dair qərarın qəbul edilmə müddəti ərizənin verildiyi tarixdən başlayaraq 2 gündən artıq ola bilməz. Müşahidənin aparılmasına rədd cavabı yalnız ərizədə göstərilən məlumatlar təsdiq olunmadıqda verilə bilər.*

Müşahidənin keçirilməsinə dairə seçki komissiyası tərəfindən icazə verilmədikdə, dairə seçki komissiyasının bu qərarından Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər

Müşahidənin aparılmasına icazə verildikdə, müvafiq dairə seçki komissiyası müşahidəçiyə Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada hazırlanmış lövhəcik verir.

Seçki Məcəlləsinin 36.6-cı maddəsinə əsasən qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun və seçicilərin təşəbbüs qrupunun məntəqə seçki komissiyası işə başladığı andan səsvermənin nəticələri rəsmiləşdirilənədək məntəqə seçki komissiyasına bir müşahidəçi təyin etmək hüququ vardır. Həmin müşahidəçilər müvafiq dairə seçki komissiyasına onların müşahidəçi təyin edilməsi barədə qərarın surətinə 2 ədəd rəngli fotoşəkil əlavə edilmiş ərizə ilə müraciət edərək lövhəcik alırlar. Müraciətin təmin edilməsinə rədd cavabı yalnız təqdim edilən məlumatlar təsdiq olunmadıqda verilə bilər.

Səsvermə gününədək seçki komissiyasının iclaslarını müşahidə etmək hüququna yalnız Seçki Məcəlləsinin 40.13-cü maddəsi ilə müəyyən edilmiş qaydada həmin hüququn əldə edilməsi üçün Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək qeydiyyatdan keçməklə xüsusi icazə almış müşahidəçilər malikdir

Mərkəzi Seçki Komissiyasının verdiyi lövhəciklərdə həmin hüquq göstərilməlidir. Qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları hər biri ayrı-ayrılıqda hər seçki komissiyası üçün komissiyanın iclaslarını müşahidə etmək hüququna malik bir müşahidəçi təyin edə bilər. Mərkəzi Seçki Komissiyası onları, hər bir seçki komissiyasında 10 nəfərdən artıq olmamaqla, püşkatma yolu ilə təyin edir.

**Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:**
- seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;
- müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;
- müşahidə açıq aparılmalıdır;
- müşahidənin yekunları faktlara əsaslanmalıdır.

Müşahidəçi müşahidəni aparan zaman yuxarıda sadalanan prinsiplərə hökmən əməl etməli, aşkar etdiyi faktları müəyyən olunmuş qaydada (buna dair müvafiq akt tərtib etməklə) rəsmiləşdirməli, imkan daxilində həmin faktların rəsmiləşdirilməsinə maraqlı şəxslərin diqqətini cəlb etməlidir. Seçki prosesində aşkarlığın təmin edilməsi, ehtimal edilən pozuntuların qarşısının alınması və baş vermiş pozuntuların nəticələrinin aradan qaldırılmasının təmin edilməsi məqsədilə həmin halların müvafiq komissiyanın nəzərinə çatdırılmasının məqsədə müvafiqliyi daim diqqətdə saxlanılmalıdır.

**Seçkilərin digər iştirakçıları kimi müşahidəçilər də Seçki Məcəlləsinin 2.6-cı maddəsində göstərilən aşağıdakı şərtlərə riayət etməlidirlər:**

- mətbuat azadlığına hörmət bəsləmək;
- öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, partiyaların seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;
- seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq;
-seçkiqabağı təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhv etməmək və korlamamaq;
-seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;
-seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;
-seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;
-səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək;
-səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;
-seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək;
-seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamaq;
-seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;
-hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq;
-seçicilərə mükafat təqdim etməmək, onları cəza ilə hədələməmək;
-dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan Seçki Məcəlləsi ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək;
-təzyiq göstərmək ilə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək;
-təzyiq göstərmək ilə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri referendum üzrə təşviqat qruplarında iştirak etməyə və iştirak etməməyə, öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya geri götürməməyə, seçkiqabağı təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməmək;
-heç bir vəzifəli şəxsin namizədin dəstəklənməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək.

Yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar

**Müşahidəçinin, o cümlədən beynəlxalq müşahidəçinin aşağıdakı hüquqları vardır:**
- seçici siyahıları ilə tanış olmaq;
- səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq;
- seçicilərə seçki bülletenlərinin verilməsini müşahidə etmək;
- səsvermə yerindən kənarda seçicilərin səs verməsini müşahidə etmək;
- seçicilərin sayını hesablamaq, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək;
- müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək;
- müşahidə aparmağı təmin edən şəraitdə və müəyyən məsafədən seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədilə baxmaq, səsvermənin nəticələri və seçkilərin yekunları (ümumi yekunları) haqqında seçki komissiyasının protokolu və digər sənədlərlə tanış olmaq;
- səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət etmək;
- seçki komissiyalarının sənədlərinin, o cümlədən səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların, səsvermə günü seçki komissiyasının işə başladığı və seçki qutularının kilidləndiyi andan seçki komissiyaları tərəfindən səsvermənin nəticələri haqqında protokolların qəbul edilməsinədək seçki komissiyaları tərəfindən tərtib edilmiş və ya onlara daxil olmuş qoşma sənədlərin təsdiqlənmiş surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxarmaq və ya almaq, əlavə nüsxələri Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən haqq ödənilməklə çıxarmaq və ya almaq (müşahidəçinin tələbi ilə seçki komissiyası adıçəkilən sənədlərin surətlərini təsdiq etməlidir), səsvermədə iştirak edən şəxslərin siyahısı ilə tanış olmaq;
- müvafiq seçki komissiyalarında seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək;
- seçki sənədlərinin dairə seçki komissiyasına və Mərkəzi Seçki Komissiyasına göndərilməsini müşahidə etmək.

**Müşahidəçiyə aşağıdakı hərəkətlər qadağan edilir:**
- seçicilərə seçki bülletenləri vermək;
- seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək;
- seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması haqqında imza etmək;
- seçicinin xahişi ilə seçki bülletenini doldurmaq;
- seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək;
- seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək;
- seçicilər arasında təşviqat aparmaq;
- bu və ya digər namizədin, siyasi partiyanın, referenduma çıxarılan sualın dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;
- müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;
- seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla).

Bu tələblərə riayət etməyən müşahidəçinin qeydiyyatı onu qeydə almış seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə tərəfindən ləğv edilə bilər

## Aktiv seçki hüququ – səs vermək hüququnun qanuni əsasları

2024-cü il ölkəmizdə Prezident seçkiləri ili olaraq tarixə düşəcəkdir. Azərbaycan Respublikasının Prezidenti 7 il müddətə seçilən və səlahiyyəti müddətincə ölkənin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edən, xalqın vahidliyini təcəssüm etdirən, dövlətçiliyin varisliyini təmin edən, müstəqilliyin, ərazi bütövlüyünün və məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı olan, eyni zamanda Silahlı Qüvvələrin Ali Baş Komandanıdır. Bu mühüm vəzifəyə səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir. Seçmək, referendumda səs vermək, seçkilərin gedişini müşahidə etmək, seçkiqabağı təşviqatda iştirak etmək hüququ qanunvericilikdə "aktiv seçki hüququ" adı altında öz əksini tapmışdır.

Azərbaycan Respublikası Konstitusiyasına əsasən məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərdən başqa 18 yaşına çatmış hər bir Azərbaycan Respublikası vətəndaşının heç bir ayrı-seçkiliyə məruz qalmadan bərabər əsaslarla seçmək, habelə referendumda səs vermək hüququ vardır. Vətəndaşların seçkidə iştirak hüquqlarının həyata keçirilməsinə mane olma, vətəndaşı namizədin lehinə imza atmağa məcbu retmə və ya onun səs verməsinə mane olunması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. Seçkilərdə və referendumda iştirak azad və könüllüdür. Seçkilərdə və ya referendumda iştirak edib etməməyə məcbur etmək məqsədilə heç kəsin Azərbaycan Respublikası vətəndaşına təzyiq göstərmək hüququ yoxdur və heç kəs onun öz iradəsini azad ifadə etməsinə mane ola bilməz. Qeyd etmək lazımdır ki, qanunvericiliyə əsasən yalnız vətəndaşlar deyil, həmçinin Azərbaycan Respublikasında 5 ildən az olmayaraq daimi yaşayan vətəndaşlığı olmayan şəxslər də prezident seçkiləri, Milli Məclisə seçkilər, bələdiyyə seçkiləri və ya referendum zamanı səsvermədə iştirak edə bilərlər. Bu zaman digər seçicilər üçün zəruri qaydalar bu seçicilər üçün də keçərlidir. Onlar 18 yaşını tamamlamış olmalı və qanunda nəzərdə tutulan formada seçki hüququnu itirməməlidirlər. Bununla yanaşı, xaricdə yaşayan, seçici qeydiyyatında olan vətəndaşlarımız da aktiv seçki hüququna malikdir. Onlar seçki hüququnu təmin etmək məqsədilə yaradılmış məntəqələrdə bu hüquqdan istifadə edə bilərlər. Bunun üçün Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluq idarələri tərəfindən seçkilərin və referendumun keçirilməsi zamanı Azərbaycan Respublikasından kənarda yaşayan vətəndaşların hüquqlarının həyata keçirilməsi ilə bağlı zəruri tədbirlər görülür.




Humanizm prinsipləri rəhbər tutularaq cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında olan məhkum və təqsirləndirilən şəxslərin də səsvermədə iştirak etmək hüququ dövlətin təminatı altındadır. Onların səs vermək hüququnun təmini, sərbəst şəkildə seçkidə iştirakı üçün müəssisələrdə seçki məntəqələri yaradılır.

**Ələkbər HÜSEYNOV**
*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin rəis müavini*

## Xarıbülbül, Qarabağ *və on bir qardaşın hekayəsi*

Biri varmış, biri yoxmuş, insanların Cənnət adlandırdığı torpaqlarda Xarıbülbül adlı bir gül yaşayırmış. Onun Qarabağ adında dillərə dastan bir oğlu və on bir qardaşı var imiş. Qarabağa analıq edən bu gül övladı və qardaşları ilə ömrünün ən şən, ən firavan günlərini yaşayırmış. Günləri ovçuluqda keçən bu igidlər həyatda namərdlik nədir bilməz, at belində, əldə qılınc yağı düşmənə qan uddurarmış. Gücünü Xarıbülbüldən alan igidlər onun ölməzliyini hiss edərək günü-gündən daha da yenilməz olurlar. İgidlərin ruhları saf, qəlbi təmiz olduğundan daim çirkinliklərlə qarşılaşırlar.



Günlərin birində yağı düşmən onların bu xoş günlərinə dözə bilməyib içindəki fitnəni daha da alovlandırır. Düşmən yaxşı bilirdi ki, Xarıbülbül ölərsə, igidlərinin qolundakı güc tükənəcək. Onu öldürməyin yollarını axtaran düşmən uzaq ölkələrdə yaşayan ögey atasının yanına yollanır. Xarıbülbülü öldürmək üçün ögey ata bir silah hazırlayır. Ucunda yanar qurğuşunlar daşıyan bu silah aləmə qorxunc səs salır və dəydiyi hər şeyi öldürürmüş. Düşmən ögey atadan bu silahı alaraq sevincək yola düzəlir. Xarıbülbülü güdən düşmən onu su içərkən yaxalayır və ləçəklərinə atəş açır. Güllə səsinə Xarıbülbül çırpınaraq torpağa düşür və vurulduğu yerdə yuxuya gedir. Öz əzizinin öldüyünü görən igidlər də qollarındakı gücü itirərək ard-arda torpağa yıxılırlar. Elə həmin gün başlayır düşmənin toy-bayramı. Lakin Xarıbülbülün silah səsinə öldüyünü bilən düşmən unutmuşdu ki, o, torpaqda qaldıqca daha da güclənir, daha da məğrurlaşır.

Beləcə, illər ötüb keçdi. Düşmənin öldü deyə düşündüyü Xarıbülbülün yaraları sağalmış, artıq torpaqdan baş qaldırmaq zamanı gəlmişdi. Bunu görən oğlu Qarabağ və 11 qardaşı sanki doqquz canlı olmuş, oyandığı torpaqlarda nərə salaraq düşməni iliyinə qədər qorxutmağa başlamışdı. Düşmən də bu illər ərzində boş durmamış, ən yüksək təpələri özünə sipər etmiş, onlara sığınmış və ögey atadan aldığı silaha arxalanıb kefdən qalmamışdı.

Və o gün yetişmiş, hesablaşma anı çatmışdı... Sabah onlar arasında döyüş baş tutacaq və bu torpağın əsl qəhrəmanları bəlli olacaqdı. Cıdır düzündə baş tutacaq döyüşdə düşmən öz namərd silahına, Xarıbülbülün igidləri isə babalarından əmanət qalan torpağın onlara verdiyi mərd gücə arxalanaraq meydana atılmışdı.

Döyüş başlayırdı. Düşmən silahının namərd səs-küyü bütün dünyanı bürüyür, qorxu və vahiməyə salır. İgidlər isə öz qoluna arxalanaraq əliyalın hücuma keçirlər. Qarşısına çıxan hər düşməni qartal kimi caynağına alıb Cıdır düzündən uçuruma tullayan igidlər, tulladıqca içindəki yaraların ah-vay edən səsini sağaldır. Amansız mübarizədə düşməni göz açmağa qoymayan igidlər öz torpaqlarından düşməni ömürlük, iti qovan kimi qovurlar. Bununla da şən günlər başlayır. Bürüdü aləmi Xarıbülbülün təravətli ətri. Ətri yayıldıqca ömrü uzandı. Ömrü uzandıqca əbədiləşdi, bu torpağa kök saldı, qırılmayan, incidilə bilməyən bir gül, bir bülbül oldu. Uzaq diyardan gələnlər gördü, görənlər bihuş oldu.

Bu gün artıq dillərdə əfsanə olan həmin Qarabağ və on bir qardaş Xarıbülbülün torpağa kök salmış gövdəsində, unudulmayan ətrində, gözəlləşən ləçəyində yaşayır. Ora artıq bizim qürur mənbəyimiz, inanc yerimiz, isti beşiyimizdir...

✍ **Fariz ƏHMƏDOV**

# Müsyö, bura Afrika qitəsi yox, Azərbaycandır!



***Yaxud "157 saylı qərəz" Fransa üçün yaxşı heç nə vəd etmir***



*Qoca qitənin hegemonlarından olan Fransa növbəti dəfə anti-Azərbaycan siyasəti ilə gündəmə gəlib. Belə ki, cari il yanvarın 17-də Fransa parlamentinin yuxarı palatasında – yəni Senatda Azərbaycanın Qarabağda keçirdiyi son hərbi əməliyyatla əlaqədar olaraq ölkəmizə qarşı sanksiyaların tətbiq olunması təklif edilib və 157 saylı qətnamə böyük səs çoxluğu – 336 senatın razılığı ilə qəbul olunub. Senatorlar, eyni zamanda "Avropa İttifaqının Azərbaycanla münasibətlərinə tam yenidən baxılmasına" və "Azərbaycandan neft-qaz tədarükünə embarqo qoyulması"na da çağırış ediblər.*

Makron Fransasının bu qərəzli addımı Azərbaycan üçün heç də təəccüblü deyil. Ermənidən daha çox erməni olmağa çalışan, erməni lobbisinə qucaq açan Fransa lideri ölkəmizə qarşı çirkin xislətini hələ Vətən müharibəsi dönəmində də ortaya qoymuşdu. Azərbaycan Ordusu işğalçıya yerini göstərərkən bu münaqişənin sülh yolu ilə həll edilməsinə məsul olanlardan biri kimi uzun illər imzasına və sözünə hörmət etməyən Fransanı da utancdan xilas edirdi. Prezident Makron isə cidd-cəhdlə hərbi əməliyyatların dayandırılması tələbi ilə çıxış edirdi. Təcavüzkarı, işğalçını dəstəkləməklə nə dərəcədə "ədalətli" olmaq mümkün idisə, Fransa bunu həyata keçirdi. Bununla da qeyri-səmimiliyini, səbəbi aydın olmasa da, Azərbaycana qarşı olan kin və nifrətini ortaya qoydu. Bununla kifayətlənməyən Makron hökuməti 2023-cü ilin avqust ayında ermənilərin süni surətdə ortaya atdıqları cəfəng kampaniyaya da dəstək verdilər: "Guya Azərbaycan Qarabağ ermənilərini blokadaya alıb və onları acından öldürür". Tələm-tələsik uzaq Parisdən bacılarına "yardım karvanı" yola salsalar da, bu çirkin niyyət Azərbaycanın dəmir iradəsinə tuş gəldi.

Uzun sözün qısası, cənab Makron işğalı və Qarabağdakı "boz zona"nın varlığını əbədi etmək üçün dəridən-qabıqdan çıxsa da, buna nail ola bilmədi. İndi olan olub, keçən keçib, Azərbaycan haqq işini başa çatdırıb. Üçrəngli bayraq 86,6 min kvadratkilometrlik ərazimizdə dalğalanır. Gözləmək olardı ki, rəsmi Paris müharibədən və antiterror əməliyyatından sonra ölkəmizə qarşı olan siyasətini korrekta edəcək və münasibətlər yeni müstəvidə inkişaf edəcək. Amma Fransa son aylarda Azərbaycana qarşı heç bir açıqlaması olmayan çox çirkin və naqis hərəkətlərlə gündəmə gəldi. Bu ölkənin Azərbaycandakı səfirliyinin iki əməkdaşının diplomatik statusa uyğun olmayan hərəkətlərlə məşğul olduqlarına görə onların "persona non-qrata" – arzuolunmaz şəxs elan edilməsi, vandalizm aktı kimi Parisdə Xan qızı Natəvanın heykəlinin təhqir olunması, bu yaxınlarda azərbaycanlı qadın jurnalistin guya casusluq etməsi ilə bağlı saxlanılması, nəhayət, Fransa parlamentində 157 saylı qətnamənin səs çoxluğu ilə qəbul edilməsi, ölkəmizə qarşı sanksiyaların tətbiqinin təklif edilməsi onsuz da gərgin olan Fransa-Azərbaycan münasibətlərini pik həddə çatdırdı. Bəs nədir görən müsyö Makronun qarın ağrısı? Azərbaycan haqq işini başa çatdırıb, döyüş meydanında ədaləti bərpa edib. Bu bizim coğrafiyadan çox-çox uzaqdakı Parisi niyə narahat edir? Fransa cəmiyyətindəki hökumətə qarşı olan narazılıqların baş alıb getdiyi, demək olar ki, hər gün kütləvi nümayişlərin, aksiyaların təşkil olunduğu, Afrika qitəsində nüfuz və dayaqlarının kifayət qədər sarsıldığı bir ölkə özünə umac ova bilmir, qonşusuna əriştə kəsir.

Silkələnib özünüzə gəlməyin vaxtıdır. Cənubi Qafqazla Afrika qitəsini səhv salmaq olmaz. Azərbaycan sərvətlərini taladığınız, terrorizmin lokallaşdırılması adı altında illərdir, qoşun saxladığınız, insan resurslarını və sərvətlərini acgözlüklə talayıb Eyfeldə kef çəkdiyiniz qara qitəyə bənzəmir. Bu regionda söz sahibi Azərbaycandır. Onun imzası və razılığı olmadan heç bir siyasi və iqtisadi layihə icra olunmur. Rəsmi Paris ən yaxşı halda ritorikasına və hərəkətlərinə çəki-düzən verməlidir. Axı siz həm də "mədəni qitə"nin sakinlərisiniz.

O ki qaldı qəbul olunan qətnaməyə və sanksiya layihəsinə bu, Azərbaycan üçün boş bir kağız parçasından başqa bir şey deyil. Diqqətli oxucularımız yaxşı xatırlayar ki, Fransa parlamentində 2022-ci ilin son günlərində də buna bənzər bir qətnamə qəbul olunmuş, nəticədə isə itirən yenə də parislilər olmuşdur. Sadəcə, fərq orasındadır ki, bu dəfə daha çox senat – 336 müsyö Azərbaycana qarşı qılınc çəkib. Belə çıxır ki, bu təkcə Makronun siyasəti deyil, Fransadakı bütün siyasi mərkəzlərin, partiyaların ümumi xəttidir.

Daha bir gülüşdoğuran məsələ: qətnamədə təklif olunur ki, Avropa İttifaqındakı ölkələr Azərbaycandan neft-qaz tədarükünə embarqo qoysunlar. Fransa parlamentarilərinə 2023-cü il ərzində Azərbaycan Prezidentinin iş qrafikini, daha doğrusu, Avropaya enerji nəqli ilə bağlı qitəyə etdiyi çoxsaylı səfərləri xatırlatmaq istəyirik. Bu gün ölkəmiz regionda və Avropada etibarlı tərəfdaş kimi qəbul edilir, onun təbii sərvətlərindən istifadə məmnunluq doğurur.

Haqlı olaraq, 157 saylı qərəzli qətnamə ilə bağlı Azərbaycan Milli Məclisi və Qərbi Azərbaycan İcması da bəyanat yayaraq bu qətnaməni pisləyib. Sitat: "Azərbaycanla bağlı gülünc ittihamlar irəli sürən Fransa Senatı qoy "Fransada niyə tez-tez az qala vətəndaş müharibəsi yaşanır", "Fransa niyə Korsika dilini qadağan edir", "Fransa ordusunun Niger, Mali, Burkino Fasoda nə işi var", "Fransa nə üçün özündən min kilometrlərlə uzaqda yerləşən əraziləri hələ də müstəmləkə asılılığında saxlayır" kimi suallara cavab versin". Sitatın sonu.

Gəl gör ki, daim qərəzli addımları ilə gündəmdə olan, ədalət məfhumundan xəbərsiz olan belə bir ölkə son illərə qədər vasitəçi simasında Azərbaycan-Ermənistan münasibətlərinin nizama salınması ilə bağlı keçirilən görüşlərdə iştirak edib. Hansı sima və səmimiyyətlə? Bu, ritorik suallardır.

**Muxtar RZAZADƏ**

## İstehsalçı və investorların Naxçıvanda görüşü keçirilib

*Xarici və yerli istehsalçıların, eləcə də investorların Naxçıvan Muxtar Respublikasına səfəri təşkil edilib. İstehsalçı və investorların Naxçıvana səfəri çərçivəsində Naxçıvan Biznes Mərkəzində tədbir keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov Naxçıvanın ötən ilin yekunlarına dair iqtisadi inkişaf göstəricilərini açıqlayıb. Vurğulanıb ki, 2023-cü ildə Naxçıvan Muxtar Respublikasında 1 milyard 552 milyon manat dəyərində ümumi məhsul istehsal olunub: "Ötən il bölgədə 593,9 milyon manatlıq sənaye məhsulu, 358,4 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub, əhaliyə 34,2 milyon manatlıq informasiya və rabitə xidmətləri, 178,2 milyon manatlıq ödənişli xidmətlər göstərilib. Naxçıvan iqtisadiyyatında şəffaflaşmanın artması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin leqallaşdırılması vergi daxilolmalarının dinamik artımı ilə nəticələnib. Belə ki, 2023-cü ildə büdcə gəlirlərində qeyri-dövlət sektorunun payı 55,7 faiz, vergi daxilolmalarında isə 62,4 faiz təşkil edib: "Sahibkarlığın sürətli inkişafında ən önəmli amillərdən biri maliyyə əlçatanlığıdır. 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən 40 investisiya layihəsinin maliyyələşdirilməsinə 6,2 milyon manat güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilib ki, bunun 84,8 faizi sənaye məhsullarının istehsalına, 11,7 faizi kənd təsərrüfatına və 3,5 faizi isə xidmət sahələrinə yönəldilib".



Görüşdə çıxış edən Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova, Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Rahid Ələkbərli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" barədə məlumat verib, proqramın əsas qayələrindən biri kimi sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırmaq, azad iqtisadi zona yaratmaqla Naxçıvanı əsas sərmayə mərkəzinə çevirmək olduğunu vurğulayıblar. Qeyd edilib ki, xarici və yerli investorların Naxçıvana səfəri muxtar respublikanın iqtisadi potensialı, investisiya imkanları ilə yaxından tanış olmaları, sözsüz ki, yeni investisiyaların yatırılması baxımından təkan rolunu oynayacaq.

"Azərbaycan Françayzinq Assosiasiyası"nın idarə heyətinin sədri Camid Mövsümov çıxışında bildirib ki, bugünkü tədbirin təşkilində əsas məqsəd xarici investorlarla yerli sahibkarları bir araya gətirmək və Naxçıvanda yeni investisiya imkanlarını araşdırmaqdır: "Tədbirdə Çin, Türkiyə və Azərbaycan investorları iştirak etdilər. Məqsəd "yaşıl enerji"yə, kənd təsərrüfatına, informasiya texnologiyaları və sənaye müəssisələrinin qurulmasına investisiya yatırılmasıdır. Buradakı şirkətlər dünya səviyyəsində tanınan holdinqlər və qruplardır. Naxçıvan sahibkarları ilə birgə iş modeli əsasında şirkətlərin təsis edilməsi də əsas məqsədlərimizdəndir. Artıq iki şirkətin rezident kimi qeydiyyata alınaraq Naxçıvanda işə başlamasına qərar vermişik. "İhlas Holdinq" və "Özgün İnşaat" şirkətləri Naxçıvanda da fəaliyyət göstərəcək, həmçinin assosiasiyanın Naxçıvan ofisinin yaradılmasını da qərarlaşdırmışıq. Eyni zamanda mart ayında Yaponiya və Türkiyənin kənd təsərrüfatı şirkətlərinin Naxçıvana səfəri planlaşdırılır".

"İhlas Holdinq"in direktor müavini Cemil Ceyhan Aral və "Özgün İnşaat"ın direktor müavini Mehmet Can Seyman çıxışlarında vurğulayıblar ki, Naxçıvanda günəş enerjisi, dəmir və avtomobil yolları infrastrukturu üçün böyük potensial var və onlar buraya sərmayə qoymaq üçün gəliblər. Qeyd edilib ki, yaxın gələcəkdə şirkətlər Naxçıvanda işlərini həyata keçirməyə başlayacaqlar.

Tədbirdə şirkətlərin gördükləri işlərə aid videoçarxlar da nümayiş etdirilib.

Çıxışlardan sonra tədbirdə investisiyalarla bağlı məlumatlandırma olub.

✍ **Ceyhun MƏMMƏDOV**

# ƏCƏMİNİN DAŞ MÖCÜZƏSİ

*"Bu abidə Atabəylər dövlətinin Azərbaycan dövlətçiliyini yüz illərlə dünyaya nümayiş etdirməsini, Atabəylər sülaləsinin, nəslinin Azərbaycan tarixində nə qədər böyük yer tutduğunu göstərir."*

**Ulu Öndər**
**Heydər ƏLİYEV**



## Memar Əcəmi – 900



Qoca tarixlə həmyaşıd olan qədim Naxçıvanımız bəşəriyyətə bəxş etdiyi böyük şəxsiyyətlər, nadir dühalarla da tanınıb, şöhrətlənib. Ulu torpağımızın, yurdumuzun xoşbəxtliyidir ki, belə dahilər bir deyil, beş deyil, onlarladır. Hər biri də öz əməli, amalı ilə zaman və məkan çərçivəsinə sığmayıb, əsrlərin yolyoldaşı olub, nəsillərin örnək timsalına çevrilib. Əbədiyyət yolçusu olan belə şəxsiyyətlərdən biri də Naxçıvan memarlıq məktəbinin banisi, dahilər tərəfindən "Şərqin böyük memarı" adlandırılan Əcəmi Əbubəkr oğlu Naxçıvanidir.

XII əsr Azərbaycan ictimai fikrinin intibahında xüsusi yeri və mövqeyi olan, yaratdığı sənət nümunələri ilə dünyanı heyrətdə qoyan memarın şəxsi həyatı bu gün bizim üçün bir qədər qaranlıq olsa da, onun günümüzə gəlib çatan nadir memarlıq inciləri Əcəmi yaradıcılığı haqqında çox bilgilər verir. Tarix öz qoynunda Əcəminin həyatı haqqında, onun ölməz əsərlərindən başqa heç nə saxlamayıb. Görünür, dahi memar bunu qabaqcadan gördüyündən öz şah əsəri Möminə xatın türbəsi üzərində belə yazmışdır:

*"Biz gedirik, ancaq qalır rüzigar,*
*Biz ölürük, əsər qalır yadigar".*

Tanrı möcüzəsi olan, qeyri-adi istedad sahibi Əcəmi bizə böyük mütəfəkkir, dünya elmlərini dərindən bilən bir filosof kimi təqdim edilir. Fakt odur ki, on ikinci yüzillikdə mütəfəkkir şair Nizami Gəncəvinin sözdə yaratdığı hikməti Əcəmi daşlarla ucaldıb. Əsrlərboyu Nizaminin söz ucalığı kimi, Əcəminin də daş möcüzəsi dünyanın hər tərəfindən görünüb, sonsuz sənət kəhkəşanında əbədi ulduz kimi parlayıb.

Əcəminin bədii təfəkkürünün qüdrəti, bənzərsizliyi yüz illər boyu dünyanın ən məşhur səyyahlarını, salnaməçilərini, sənətşünaslarını heyrətdə qoyub. Hələ 1216-cı ildə Təbrizdə qələmə alınmış "Əcaib-ül-əşya" kitabında sənətkar "Şeyx-ül-mühəndis-mühəndislər başçısı" adlandırılıb. Həmçinin "Əcaib əd-dünya" əsərində də Atabəylər dövlətinin paytaxtı Naxçıvanda Əcəminin yaratdığı memarlıq tikililərindən bəhs edilib, onların bu şəhərin əzəmətini xeyli artırdığı qeyd olunub. XVII əsr fransız səyyahı Tavernye, XIX əsrin əvvəllərində Naxçıvana gələn Dübya de Monape, eləcə də fransız Dcelafua, alman memarı Yapobstal, rus şərqşünası Xanıkov və başqaları Əcəmi memarlığında möhtəşəmliklə zərifliyin sintezindən yaranan kompozisiya bitkinliyinə heyrətlərini bildirmiş, onun qeyri-adi istedadına heyran qalmış, yaratdıqlarını nadir, əvəzsiz, bənzərsiz epitetləri ilə qeyd etmişlər.

Naxçıvan torpağının yetirməsi olan Əcəmi bir sənət fatehi olaraq bənzərsiz sənət zirvəsi fəth edib. Onun qüdrəti sayəsində burada yeni bir memarlıq məktəbi formalaşıb, sonrakı dövrlərin sənətkarları bu məktəbdən dərs alıblar. Ümumiyyətlə, Əcəmi sənəti Yaxın və Orta Şərq memarlığına güclü təsir göstərib. O ki qaldı Əcəmi sənətinin Naxçıvan şəhərinə təsirinə, təbii ki, onlar bu şəhərə çox böyük əzəmət gətirib. Ona "Nəqşi-cahan – dünyanın bəzəyi" titulunu bəxş edib. Bu sənət çeşməsindən su içən memarlar sonralar əsərlərində Əcəmi ənənələrini bəzən birbaşa, bəzən yeni forma və kompozisiya üslubunda davam etdirmişlər. Dünyanın bir çox sənətşünasları da bunu təsdiqləmişlər. Hətta türk tədqiqatçıları memar Sinanın İstanbulda yaratdığı türbələrdə təəssüratlarını "Atabəylərdən qalma günbəzlərdən bir nəfəs duyulur" şəklində bildirmişlər.

O yalnız Şərqdə deyil, Qərb dünyasında da yaxşı tanınan sənətkarlardan biri idi. Görkəmli sənətşünas Əbdülvahab Salamzadə onun haqqında belə yazır: *"Yaxın Şərqin bir çox memarlarının yaradıcılığında onun təsirini görmək o qədər də çətin deyil".*

Təəssüf ki, böyük memarın yaratdıqlarının çox az bir qismi, cəmi iki memarlıq incisi – Yusif ibn Küseyir və Möminə xatın türbələri dövrümüzəcən gəlib çatıb. Lakin məxəzlərdə Əcəminin Möminə xatın türbəsi ətrafında yaratdığı böyük memarlıq kompleksi, o cümlədən bu kompleksə daxil olan nəhəng Cümə məscidi, qoşaminarəli baştağ, darülfünün, dövlətxana tikililəri barədə də məlumatlar var. Bütün bunlara rəğmən sənətkarın günümüzə gəlib çatan əsərləri solmayan gözəlliyi, əzəməti ilə onun dahi bir memar olduğunu təsdiqləyir.

Əcəminin bu gün Şərqin ən nadir klassik memarlıq nümunələri sırasında duran Möminə xatın türbəsi 1186-cı ildə inşa olunub. Atabəy Şəmsəddin Eldəgizin xanımı, Məhəmməd Cahan Pəhləvanın anası Möminə xatının şərəfinə ucaldılan bu nadir tikilini fərqləndirən cəhət, ilk növbədə, onun yeraltı və yerüstü hissədən ibarət olmasıdır. Onu da qeyd edək ki, bu memarlıq üslubu ilk dəfə Əcəmi tərəfindən işlədilmişdir. Dahi şəxsiyyət Heydər Əliyevin dediyi kimi: ***"Bu abidə Atabəylər dövlətinin Azərbaycan dövlətçiliyini yüz illərlə dünyaya nümayiş etdirməsini, Atabəylər sülaləsinin, nəslinin Azərbaycan tarixində nə qədər böyük yer tutduğunu göstərir".***

Formaca kəsik onbucaqlı şəklində olan bu abidə monumental biçimi, zəngin həndəsi naxışlar sistemi, kompozisiya bütövlüyü ilə seçilən mükəmməl bir sənət nümunəsidir. Orijinal ornamentləri, yüksək bəzək xüsusiyyətləri, əsasən, kufi xətlə işlənmiş kitabələr, dekorativ portallar məqbərənin bədii-estetik çalarını artırmaqla Əcəmi dühasını, bənzərsiz qüdrətini təcəssüm etdirir. Təsadüfi deyil ki, tanınmış şərqşünas V.M.Alpatov özünün "Ümumdünya incəsənət tarixi" kitabında bu tarixi abidəni belə qiymətləndirir: *"Bu cür inkişaf tapmış forma hissiyyatı, bu cür klassik kompozisiya bitkinliyi və kompozisiyanın gerçəkləşdirilməsindəki bu cür kamillik o dövrlərdə Orta Avropa arxitekturasında rast gəlinmir. Klassik Şərq ədəbiyyatının ən gözəl nümunələrindən olan Firdovsinin (X-XI əsrlər) "Şahnamə", Nizaminin (XII əsr) "Leyli və Məcnun" kimi ölməz poemalarında olduğu kimi, Naxçıvandakı bu məqbərə də bəşəri mahiyyəti ilə fərqlənir".*

Naxçıvanda Əcəmidən qalan yadigarlardan digəri isə Yusif Küseyir türbəsidir. Xalq arasında "Atababa günbəzi" kimi də tanınan bu abidəni Əcəmi Möminə xatın türbəsindən əvvəl tamamlayıb. Dövrünün tanınmış şəxsiyyətlərindən olan Xoca Yusifin şərəfinə ucaldılan türbənin giriş qapısında Əcəmi kufi xətlə belə bir cümlə həkk edib: "Əməli – Əcəmi ibn Əbubəkr əl-bənnayi-ən-Naxçıvani", yəni naxçıvanlı bənna Əbubəkr oğlu Əcəminin əməli. Daş üstə daş qoyub ucaltdığı sənət nümunələri ilə heyrət yaradan və özünü təvazökarlıqla, sadəcə olaraq, bənna adlandıran böyük memarın bu əsəri də Möminə xatında olduğu kimi, yeraltı və yerüstü hissədən ibarətdir. Səkkizbucaqlı olmaqla daxildən və xaricdən günbəz şəklində görünən bu abidə də bir çox sənətkarlıq məziyyətləri ilə diqqəti çəkir. Məqbərənin xaricdəki günbəzi piramida, daxildəki isə çatmatağ formasındadır. Abidə incə üslubda, özünəməxsus şəkildə işlənib. Naxışlar bir-birini tamamlayan həndəsi ornamentlərlə zəngindir.

Bu gün ölkəmizdə qüdrətli memar əsl qiymətini alıb, layiq olduğu ucalığa qovuşub. Bakı şəhərində metro stansiyalarından biri onun adını daşıyır. Doğma vətəni Naxçıvanımızda isə Əcəminin əzəmətli abidəsi ucaldılıb. Memarlıq incisi, şah əsəri olan Möminə xatın türbəsi ucalan ərazi onun şərəfinə "Əcəmi seyrəngahı" adlandırılıb.

Azərbaycanın görkəmli memarı Əcəmi Naxçıvaninin 900 illik yubileyinin 2024-2025-ci illərdə UNESCO çərçivəsində qeyd olunacaq tədbirlər siyahısına daxil edilməsi isə hamımızı daha da qürurlandırır. Bu onu göstərir ki, Azərbaycan memarlığında iz qoyan, cığır açan Əcəmi Naxçıvani irsi ölməzdir və bütün dünya onun dahi memar olmasını qəbul edir. Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illik yubiley tədbirləri çərçivəsində Möminə xatın türbəsini ziyarət edərkən demişdir: ***"Düzdür, biz lər çox vaxt bu abidəni gözəl memarlıq abidəsi kimi təbliğ edirik. Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün, bəlkə, daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir. Əgər dövlətçilik o qədər yüksək səviyyədə olmasaydı, onlar bu cür abidənin yaradılması üçün qərar qəbul edə bilərdilərmi?"***

Şəhərimizin ən gözəl guşələrindən birində – Əcəmi seyrəngahında əsrlərə, qərinələrə meydan oxuyan əzəmətli Möminə xatın abidəsi bu gün hər bir naxçıvanlının, qədim yurdumuza gələn qonaqların ən çox üz tutduqları ünvandır. Möhtəşəmliyin, zərifliyin, itirilməyən mənəvi dəyərlərin simvoluna çevrilmiş bu abidə bu gün daha qürurla başını qaldırıb tarixə, uzun illərin keşməkeşlərinə meydan oxuyur. Sanki bilir ki, onun memarı və qurucusu olan Əcəmi Əbubəkr oğlunun davamçıları, xalqımız onun hər daşının, hər bir naxışının qayğısına qalır.

**Jalə MİRZƏYEVA**
***"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin bələdçisi***

## Naxçıvanlı alimin nəşri Avropada 7 dildə çap edilib

Nəşr tarixi XX əsrin əvvəllərinə təsadüf edən, müxtəlif illərdə "Cavanlar həyatı", "Füqəra səsi" adı ilə nəşrini davam etdirən, iki əsrin güzgüsü sayılan "Şərq qapısı" qəzeti Naxçıvanın ictimai-siyasi həyatında özünəməxsus yer tutmaqdadır. Naxçıvanda maarifin, mədəniyyətin inkişafında, cəmiyyət həyatının müxtəlif sahələrinin işıqlandırılmasında, eləcə də insanlarda dünyagörüşü və düşüncə tərzinin formalaşmasında "Şərq qapısı"nın təsir gücü və fəaliyyəti danılmazdır.

"Şərq qapısı" qəzeti Ümummilli Lider Heydər Əliyevin hələ gənc yaşlarından dəyər verdiyi, onun təsiri ilə böyüdüyü, gələcəkdə siyasi xadim kimi yetişməsində xüsusi rol oynayan bir mətbu orqandır. Dahi öndər 1990-cı ildə Moskvadan Naxçıvana qayıdışında ilk müsahibə verdiyi qəzet də, məhz "Şərq qapısı" qəzeti olmuşdur. "Şərq qapısı" 1991-lərin ilk xitabət kürsüsü olmuş, Yeni Azərbaycan Partiyasının ilk rüşeymləri bu qəzetin səhifələrində göyərmişdir.

"Şərq qapısı" qəzeti Naxçıvan Muxtar Respublikasının bir əsrlik yazılı salnaməsidir. Naxçıvan mətbuatının bayraqdarı olan "Şərq qapısı" qəzeti dövlətçilik ənənələrinin möhkəmlənməsində, tarixi hadisələrin ensiklopedik xarakter almasında, ictimai-siyasi proseslərin geniş ictimaiyyətə çatdırılmasında böyük təsiri ilə seçilməkdədir.


La historia de la prensa en Najicheván: SEGÚN LOS MATERIALES DEL PERIÓDICO SHARG GAPISI [LA PUERTA DEL ESTE] (Spanish Edition)
ISBN-13: 9786205578025
ISBN-10: 6205578026
Author: Seyid, Sura
Edition: 1
Binding: Paperback
Publisher: Ediciones Nuestro Conocimiento
Published: 2023-01-12
Sell this book Buy or Rent?

"Şərq qapısı" qəzetini, eyni zamanda "Azərbaycan milli azadlıq hərəkatının carçısı" adlandırmaq olar. Hətta sovetlər birliyindən ayrıldığını elan edərək özünü müstəqil respublika elan edən Naxçıvan Muxtar Respublikasında ilk müstəqil mətbu orqan 1990-cı ilin 20 yanvar tarixindən başlayaraq səkkiz nömrəsi işıq üzü görən "Şərq qapısı" qəzeti olmuşdur.

"Şərq qapısı" qəzeti, eyni zamanda Naxçıvanda yaşayıb-yaradan ədəbi tənqidçilərin, ədəbiyyatşünas alimlərin yaradıcılıq tribunasıdır. Azərbaycan ədəbiyyatının mühüm yenilikləri, ədəbi proseslərin əsas istiqamətləri muxtar respublika oxucularına, məhz bu qəzet vasitəsilə çatdırılıb. Ümumiyyətlə, Azərbaycan ədəbiyyat tarixinin öyrənilməsində "Şərq qapısı"nın müstəsna yeri və rolu vardır.

"Şərq qapısı" qəzeti, sözün həqiqi mənasında, regionda ədəbiyyat, jurnalistika, elm məktəbi funksiyasını yerinə yetirmişdir. Artıq Naxçıvanda "şərqqapısışünaslıq" elmi formalaşmış, qəzet tədqiqat obyektinə, elmin bir sahəsinə çevrilmişdir.

"Şərq qapısı" qəzetinin ilk tədqiqatçısı filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyiddir. Müəllifin bu günədək qəzetin tarixi ilə bağlı bir monoqrafiya, Azərbaycan və ingilis dillərində 2 dərs vəsaiti nəşr edilmişdir. 2019-cu ildə Lambert nəşriyyat evi ilə bağlanan müqaviləyə əsasən müəllifin nəşrə hazırladığı "Naxçıvan mətbuat tarixi" ("Şərq qapısı" qəzetinin materialları əsasında) kitabı Almaniyada işıq üzü görmüş və dünyanın tanınmış kitab satışı mərkəzlərində yayımı və satışı təşkil edilmişdir. Avropa və Amerikada kitaba olan marağın artdığı nəzərə alınaraq Avropa nəşriyyatları ilə bağlanmış müqaviləyə əsasən kitab 7 dilə – alman, fransız, italyan, rus, portuqal, ispan, ingilis dillərinə tərcümə edilərək dünyanın bir çox kitab yayımı portallarında satışa çıxarılmışdır. Hər biri beynəlxalq ISBN kodu ilə təmin edilən bu nəşrləri dünyanın istənilən kitab satışı bazasından əldə etmək olar.

"Naxçıvan mətbuat tarixi" adlı nəşrin Avropanın tanınmış nəşriyyatlarında 7 dildə nəşr olunaraq beynəlxalq bazaya yüklənməsi Naxçıvanın muxtariyyət tarixinin 100 illiyinə ən layiqli töhfədir.

**Surə SEYİD**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Naxçıvan bazarından reportaj

## Onlar bu dəfə “Şərq qapısı” üçün gülümsədi



Təkcə alış-veriş etmək baxımından yox, həm də insanların maraqlı fikirlər səsləndirdiyi məkandır bazar. Bura üz tutarkən şəhərin ümumi ab-havası ilə yanaşı, yerli sakinlərin, ələlxüsus da, satıcıların əhvali-ruhiyyəsini öyrənmək mümkündür. Müştərilərin bazar seçimində ən çox üstünlük verdiyi məqam isə satıcıların onlarla münasibəti, qurduqları ünsiyyətdir. Burada hamının bir məqsədi var: xoş rəftar edən, gülərüz, endirim edən satıcıdan lazım olanı almaq. Zəruri şərt kimi bunu qəbul etməyən satıcılarımız üçün bu, xidmətin bir növ səviyyəli üstünlüyüdür – gülərüzlü olmaq. Elə sakinlərimiz tərəfindən “57 bazarı” adını qazanmış ən böyük alış-veriş məkanımızın satıcıları kimi...

✍ Ceyhun MƏMMƏDOV
📷 Əli XUDİYEV



















## Qoy həmişə Günəş olsun!



Hər səhər yeni ümidlərə vəsilə olan, Şərqin qapısı, sivilizasiyanın başlanğıc nöqtəsi kimi əsrarəngiz şəhər Naxçıvan haqqında rəf-rəf kitablar yazılıb. Bu şəhərin sorağı ümidlərə, sevinclərə sirayət edərək dünyanın dörd bir yanına yayılıb...



Ümidlər daha çox kitab şəklində ortaya çıxır deyirlər. Düşünün ki, Viktor Hüqo olmasaydı, bir neçə il əvvəl yanıb kül olan Notr-Dam kilsəsinin halına yananların çoxu nə vaxtsa Parisdə belə bir kilsənin tikildiyindən xəbərsiz olacaqdı. Çünki Hüqo Kvazimodonun Esmeraldaya olan sevgisi ilə İsanın “itkin düşmüş” ruhunu yenidən kilsəyə qaytarmışdı.

Kitab xəyal gücü sərhədsiz olan alternativ dünyadır. Yaxşı kitabın mütaliəsi iz buraxdığı hər bir əşyada paslanır. Şüurumuzda kəmələrin yeri qalır. Bugünkü düşüncələrə sahiblənməyimizə, həmçinin gələcəkdə həyatımızda verəcəyimiz qərarlara, atacağımız addımlara səbəb oxuduğumuz kitablardır. Kitab həm də insanın içində gizli qalan dəyərləri üzə çıxarmaq, daha da cilalamaq, doğru yolu göstərmək xüsusiyyətinə malikdir. İnsanın təbiətən sevdiyinə toxunmaq, yaxud toxunduğunu daha çox sevmək kimi bir cəhəti də var. Vərəq-vərəq çevirdikcə toxunduğumuz, oxuduqca qoxusunu hiss etdiyimiz kitablar bizə daha əzizdir. Oxuyub kiməsə, yaxud kitabxanaya qaytarmalı olmadığımız kitablar isə özündə mütaliə zamanının enerjisini, ruhunun qırıq-tökük xatirələrini daşıyır. Onları müəyyən müddət sonra götürüb vərəqləyəndə sanki eyni hadisələri, hissləri təkrar-təkrar yaşamış oluruq.

Naxçıvan şəhərində uzun illərdir, ən çox həsrətini çəkdiyimiz mənzərələrdən biri də səyyar kitabçılarımızın olmaması idi. Süleyman Rüstəmin “Ana və poçtalyon” poemasında ananın poçtalyon yolu gözləməkdən saralan gözləri də bizim səyyar kitabçıları gözləyən gözlərimiz kimi tutulmuşdu.

Artıq şəhərin hər tin-bucağında səyyar kitab satıcılarına rast gələ bilirik. Uzun qış gecələrində bu kitabçıları gördükcə uşaq kimi qəlbimiz sevindən uçunur, bu da bizi əfsunlayaraq xarakterimizi ortaya qoyan sehrli kitablar.

Qışın soyuğunda, küləyində, boranında isti kitablarla oxucularına həmdəm olan bu kitabçılar bizə Ordubadinin “Dumanlı Təbriz”ində Günəşi, “Ovod”da ümidi, “Sevil”də azadlığı, Jostein Gaarderin soyuq otağında “Sofinin dünyası”nı, Zülfi Livanelinin xəyalındakı “Serenad”ı, Cek Londonun ayağına daş bağlamış “Martin İden”ini, Ramiz Rövşənin yeni “Nəfəs”ini, İlqar Fəhminin “Misra-misra” elegiyasını gətirir. Hər səhifəsi bir ömrə bərabər olan bu kitablardan uzaqlaşdıqca həyatımız daha da monotonlaşaraq rəngsizləşməyə davam edir.

Dörd dildə yüzlərlə kitabın təbliği və satışı ilə məşğul olan bu iki gənc – Seymur Sultanov və Nazir Kəngərli Naxçıvan Dövlət Universitetinin III kurs tələbələridir. Fakültənin, hətta universitetin ən fəal tələbələrini bu cür yaxşı işlərdə yarışan gördükcə ürəyimiz dağa dönür, arzularımız yenidən qol-budaq atır. Gənclərin öz zəhməti ilə halal pul qazanması və qazandıqları pulla cəmiyyətə işıq tutması əvəzolunmaz xidmətlərdəndir. Çox yaxşı mütaliəyə sahib olan bu iki gənc qarşılarına məqsəd qoyaraq mütaliəyə marağı daha da artırmaq üçün bu addımı atıblar. Gənclər bu işin ən ucqar kəndlərdə də təbliği ilə məşğul olmağın ağırlığını öz çiyinlərinə götürərək həm sərfəli qiymətə, həm də ən yaxşı xidməti təklif etməyi gözə alıblar. Bu yolda bütün uğurlarımız gələcəyə körpü olan bu cür gənclərlə olsun. Olsun ki, gələcəyimiz olan körpələri, ailələri artıq kitabla sevindirsinlər. Onlar da ucalıq rəmzi olan kitabları sinələrinə sıxaraq qaçıb evlərinin kitab rəflərini düzəltsinlər. Çünki dünyamızı kitab qurtaracaq.

Gəlin bizim olana nəfəs olaq, can olaq. Eynşteyn və Freydin məktublaşdığı poçtalyon, Nazim Hikmətin Gülhanə parkındakı ceviz ağacı, Frans Kafkanın atasına məktubu, Şəhriyarın batan ulduzu, Mir Şahin heç nə haqqında hər şeyi olaq. Hər birimiz bir Qutenberq, hər birimiz bir kitab olaq. Biz oxuyaq, onlar desin: “Qoy həmişə Günəş olsun!”

✍ Fariz ƏHMƏDOV

### Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 12 fevral 2024-cü il tarixdə açıq hərraca çıxarılacaq əmlak haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq obyektin adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 faiz (manatla) | Obyektin 50 faiz güzəştli satış qiyməti (manatla) | 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|
| 1. | Mehmanxana binası (3567 kv.m torpaq sahəsi ilə birlikdə) | Ordubad şəhəri | 1975 | 356 000.0 | 178 000.0 | 35600.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 9 fevral 2024-cü il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (8-ci küçə, 1/5A ) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 12 fevral 2024-cü il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38***

### Azərbaycan Respublikası Elm vəTəhsil Nazirliyi
### Naxçıvan Dövlət Universiteti
### *aşağıdakı dekan və kafedralar üzrə müsabiqə elan edir*

**Dekan vəzifəsini tutmaq üçün**

1. Xarici tələbələr üzrə dekanlıq

**Kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Elektroenergetika mühəndisliyi kafedrası
2. İnformatika kafedrası
3. Rus və Şərq dilləri kafedrası
4. Bədən tərbiyəsi və idman kafedrası
5. Beynəlxalq münasibətlər kafedrası
6. Təməl tibb fənləri kafedrası

**Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün**

1. Azərbaycan tarixi kafedrası – professor – 1 yer, dosent – 1 yer (0,5 ştat), baş müəllim – 1 yer (0,5 ştat)
2. Azərbaycan dili və ədəbiyyatı kafedrası – dosent – 1 yer (0,5 ştat)
3. Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)
4. Elektroenergetika mühəndisliyi kafedrası – müəllim – 1 yer (0,5 ştat)
5. Elektronika və informasiya texnologiyaları kafedrası – dosent – 1 yer, müəllim – 1 yer (0,5 ştat)
6. Ümumi riyaziyyat kafedrası – müəllim – 1 yer
7. Mühasibat və maliyyə kafedrası – dosent – 1 yer (0,5 ştat)
8. İqtisadiyyat və marketinq kafedrası – dosent – 1 yer (0,5 ştat)
9. Musiqinin tarixi və nəzəriyyəsi kafedrası – dosent – 1 yer
10. Xalq çalğı alətləri kafedrası – müəllim – 1 yer
11. Təsviri incəsənət kafedrası – dosent – 1 yer, dosent – 1 yer (0,5 ştat)
12. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrası – müəllim – 1 yer (0,5 ştat)
13. Bədən tərbiyəsi və idman kafedrası – dosent – 1 yer (0,5 ştat)
14. Coğrafiya kafedrası – dosent – 1 yer
15. Baytarlıq təbabəti kafedrası – dosent – 1 yer (0,5 ştat)
16. Əczaçılıq və biokimya kafedrası – baş müəllim – 1 yer (0,5 ştat), müəllim – 1 yer (0,5 ştat)
17. İngilis dili və tərcümə kafedrası – baş müəllim – 1 yer, müəllim – 1 yer
18. Biologiya kafedrası – dosent – 1 yer
19. Pedaqogika və psixologiya kafedrası – dosent – 1 yer
20. İngilis dili və metodika kafedrası – baş müəllim – 1 yer
21. İnformatika kafedrası – baş müəllim – 1 yer
22. Meliorasiya və ekologiya mühəndisliyi kafedrası – baş müəllim – 1 yer
23. Fəlsəfə və sosial iş kafedrası – dosent – 1 yer (0,5 ştat)
24. Stomatologiya kafedrası – dosent – 1 yer (0,5 ştat)

Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi***
***Telefon: (036)545-23-66/10-01***

### *İtmişdir*

Şərur Texniki Peşə və Sürücülük Məktəbi tərəfindən Cəlilov Elvin Dərdayıl oğluna verilmiş AS-019599 nömrəli BC kateqoriyalı sürücülük sertifikatı itdiyindən etibarsız sayılır.

***

Əliyev Bəhram Şakir oğlunun adına 25.08.2023-cü ildə verilmiş MN-0067435 seriya nömrəli zabitin hərbi bileti itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbə sakini Məmmədov Şükür Novruz oğlunun adına olan $1672^A$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Mirzəyeva Fatimə Sahib qızının adına “Naxçıvan” Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun İbadulla kəndində yaşamış Tağıyev Yunis Əli oğlunun adına verilmiş JN-$366^A$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 1, 01/A ünvanında Sadıqova Aytən Sadıq qızının adına olan 12558 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Xəlilli kənd sakini Bayramov Elgün Seyfəli oğlunun adına olan JN-$27^A$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Məmmədov Afik Vəli oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun AD-0049723 seriya nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Yaycı kənd sakini Mustafayev Abbasqulu Hüseyn oğluna məxsus JN-$48^B$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Qahab kənd sakini Bağırov Hüseyn Yusif oğlunun adına olan JN-202 nömrəli, 10306018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Xəlilli kənd sakini Əliyev Arif Əliqulu oğlunun adına olan JN-$97^A$ nömrəli “Torpağın mülkiyyət hüququna dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Sərxanlı kənd sakini Əliyev Vəli Rəcəb oğlunun adına olan JN-$116^A$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 24